

# ŞƏRQ QAPISI

100 ilin qəzeti

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Sayı: 31 (24.413)

*10 avqust 2024-cü il, şənbə*

www.serqqapisi.gov.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


## Dövlət Proqramı çərçivəsində muxtar respublikada ilk dəfə olaraq telekommunikasiya xətlərinin alternativliyi təmin edilir



Səhifə ➡ 3

## Əyilməzlik ünvanıdır Naxçıvan



Səhifə ➡ 4

## Naxçıvanda dövlət əmlakının özəlləşdirilməsindən əldə olunan gəlir 10 dəfədən çox artıb




Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti cari ilin 7 ayı ərzində dövlət əmlakının özəlləşdirilməsi sahəsində işləri davam etdirir.

Nazirlikdən "Şərq qapısı"na bildirilib ki, xidmət tərəfindən bu ilin yanvar-iyul aylarında 143 dövlət əmlakı özəlləşdirilib. Həmin dövrdə dövlət əmlakının özəlləşdirilməsindən dövlət büdcəsinə daxilolmalar 1,1 milyon manat olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 10,1 dəfə çoxdur.

## İqlim dəyişikliyi ilə mübarizəyə həsr olunan növbəti konfrans Naxçıvanda keçirilib

Səhifə ➡ 3



# Prezident İlham ƏLİYEV: "Naxçıvanla bağlı böyük planlarımız var"

II Qarabağ müharibəsindən sonra ölkəmizin bir çox regionlarında olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da iqtisadi-siyasi, sosial və mədəni sahələrdə irəliləyiş baş verdi. Uzun illər blokada şəraitində yaşamasına, dövlətimizin digər əraziləri ilə quru yollarının kəsilməsinə baxmayaraq, Naxçıvan son 20 ildə sürətli şəkildə inkişaf edərək özünün yeni mərhələsinə qədəm qoydu. Keçdiyi tarixi inkişaf yolunu, o cümlədən ötən əsrin 90-cı illərindən etibarən düşdüyü ağır vəziyyətləri göz önünə gətirsək, tam əminliklə deyə bilərik ki, Naxçıvan Muxtar Respublikası blokadadan – inkişafa doğru uğurlu yol keçmiş, dövlətimizin bu və ya digər sahələrdə yürütdüyü siyasətdə aparıcı yerlərdən birini tutmuşdur. Təsadüfi deyil ki, hələ ötən əsrin 90-cı illərindən başlayaraq Ulu Öndər Heydər Əliyev muxtar respublikanın dövlət siyasətimizdə üstün mövqedə dayandığını nəzərə alaraq onun müasirləşməsi, ixrac potensialının yaxşılaşdırılması, turizm, sənaye, səhiyyə, təhsil və digər sahələrdə nailiyyətlər əldə etməsini prioritet məsələ kimi qarşıya qoymuşdu.

Ümummilli Liderimizin müəyyənləşdirdiyi dövlət siyasətini davam etdirən ölkə başçısı cənab İlham Əliyev də, bu mənada, Naxçıvan Muxtar Respublikasının inkişafını, ölkədaxili və ölkəxarici siyasətdə aparıcı rol oynadığını yüksək qiymətləndirmiş, muxtar diyarın potensialını zənginləşdirmək üçün, demək olar ki, bütün sahələrdə ciddi işlər görülmüş və mütərəqqi addımlar atılmışdır. Muxtariyyətin yüzüncü ilində ***"Naxçıvan üçün böyük planlarımız var"***, – deyən Prezident cənab İlham Əliyevin 20 il bundan öncə, muxtariyyətimizin 80 illiyində söylədiyi tarixi fikirlərin əhəmiyyətini və çıxışda qeyd olunan məqamları xatırlamaq yerinə düşər: ***"Naxçıvanın sosial-iqtisadi göstəriciləri çox yüksəkdir. Muxtar respublikanın ümumi daxili məhsulu ildən-ilə artır, sənaye potensialı, yerli istehsal artır, mühüm sosial məsələlər öz həllini tapır. Əlbəttə, görülən bütün bu işlərin təməli məhz o illərdə qoyulmuşdur".***

Ölkə başçısının hələ illər əvvəl söylədiyi fikirlər, həmin müddətdə qarşıya qoyulan məsələlər bu gün muxtar respublikamızda, demək olar ki, bir çox sahələrdə öz əksini tapmışdır. Belə ki, Prezident cənab İlham Əliyevin diqqəti sayəsində Naxçıvanda son illər güclü infrastruktur yaradılmış, iqtisadi potensial artmış bu və ya digər sahələrdə iqtisadi, sosial, mədəni əlaqələr qurulmuşdur. Dövlət başçısının müəyyənləşdirdiyi proqramlar, imzaladığı sərəncamlar, o cümlədən muxtar respublika ilə bağlı qəbul edilən qərarlar, verilən Dövlət proqramları buna əyani sübut olmaqla bərabər, həm də diyarımızın inkişaf tendensiyasını formalaşdıran başlıca faktordur. Təsadüfi deyildir ki, bütün bunlar cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda öz təsdiqini tapmışdır. Proqramda deyilir: *"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı sahəsində 2004-cü ildən etibarən qəbul edilmiş Dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin icrası Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişafı, yeni iş yerlərinin və müəssisələrin yaradılması, kommunal və sosial infrastruktur təminatı səviyyəsinin yüksəlməsi ilə nəticələnmişdir.*

Səhifə ➡ 2

## Naxçıvan iqtisadi rayonu üzrə turizm inkişaf planı turizm sənayesi nümayəndələri ilə müzakirə edilib



Səhifə ➡ 5

## Vətəndaşların seçki hüququnun konstitusion əsasları



Səhifə ➡ 3

## Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Məktəbinə Kembric proqramı ilə qəbul imtahanı aparılıb



Səhifə ➡ 5

## Aqrar sahədə subsidiyaların verilməsi qaydaları ilə bağlı maarifləndirici tədbir olub



Səhifə ➡ 5

## İngilis dili Təmayüllü Gimnaziyanın IX sinif şagirdləri buraxılış imtahanında muxtar respublika üzrə ən yüksək nəticə göstəriblər

Naxçıvan Dövlət Universitetinin nəzdində İngilis dili Təmayüllü Gimnaziyanın ümumi orta təhsil səviyyəsində buraxılış imtahanlarında yüksək nəticə göstərən şagirdlərinə fərqlənmə attestatları təqdim olunub.

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən gimnaziyanın direktoru Nazim Rəhimov qeyd edib ki, 2023-2024-cü tədris ilində gimnaziyada 159 şagird təhsil alıb. Dövlət İmtahan Mərkəzinin keçirdiyi buraxılış imtahanlarında, ümumilikdə, 60 şagird iştirak edib, onlardan 52 nəfəri 220-300 intervalında bal toplayaraq yüksək nəticə göstəriblər. Bildirilib ki, Nazirlər Kabinetinin qərarına əsasən ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanlarında Azərbaycan dili, riyaziyyat, ingilis dili olmaqla, 3 fənnin hər birindən 75 bal toplayan şagirdlər fərqlənmə attestatına layiq görülüblər.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev bildirib ki, gimnaziyanın şagirdləri bu il keçirilən IX siniflərin buraxılış imtahanlarında ən yüksək nəticə göstərərək muxtar respublika üzrə ilk sırada yer alıblar. Belə ki, ümumi göstəricinin 50 faizini təşkil edən 30 şagird uğurlu nəticə göstərərək ümumi orta təhsil haqqında fərqlənmə attestatına sahib olub. Rektor diqqətə çatdırıb ki, Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Məktəbinin Kembric Məktəbi statusu alması ingilisdilli kadrların hazırlanmasında əsas baza rolunu oynayacaq. Elbrus İsayev şagirdləri və bu yolda onlara dəstək olan müəllimləri təbrik edib, təhsil həyatında uğurlar arzulayıb.




Sonra rektor şagirdlərin suallarını cavablandırıb. Gimnaziyanın ümumi orta təhsil səviyyəsində buraxılış imtahanlarında yüksək nəticə göstərən şagirdlərinə fərqlənmə attestatları və hədiyyələr təqdim olunub.

# Prezident İlham ƏLİYEV:



# “Naxçıvanla bağlı böyük planlarımız var”

*(əvvəli 1-ci səhifədə)*

*Dövlət proqramları çərçivəsində görülmüş işlər Naxçıvan Muxtar Respublikasının qarşıdakı illərdə də inkişafı üçün geniş imkanlar yaratmışdır. Hazırda bu imkanlardan istifadə edilməklə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi həyatında, o cümlədən kənd yerlərində iqtisadi fəaliyyətin sürətləndirilməsi, əlverişli biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi nəticəsində ixracyönlü dəyər zəncirinin qurulması və dayanıqlı iş yerlərinin yaradılması istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi əsas prioritetlərdən birinə çevrilmişdir. Bu isə, öz növbəsində, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə əlaqədar tədbirlərin, həmçinin kompleks proqramların hazırlanmasını və icrasının davam etdirilməsini nəzərdə tutur”.*



Məlumdur ki, istənilən regionun inkişafı və müasirləşməsi onun iqtisadi potensialından asılıdır. İqtisadiyyatın dayanaqlı və müasir tələblərə cavab verəcək şəkildə qurulması, bu və ya digər mənada, ölkədə sahibkarlıq bazarının formalaşmasına, turizm əlaqələrinin qurulmasına, mədəniyyət, təhsil, səhiyyə və bir sözlə, sosial infrastrukturun təkminləşdirilməsinə şərait yaradır. Qeyd etmək lazımdır ki, muxtar respublikamız yuxarıda sadaladığımız bir çox cəhətlər nöqteyi-nəzərindən ölkəmizin iqtisadiyyatında böyük rol oynayır və zaman ötdükcə dünyanın diqqətini öz üzərinə çəkən regiona çevrilir.

Dövlət Proqramından da göründüyü kimi, muxtar respublikamızda həllivacib məsələ kimi qarşıya qoyulan mövzulardan biri diyarımızda əlverişli biznes mühitinin qurulması, ölkəmizə, o cümlədən Naxçıvan Muxtar Respublikasına xaricdən sərmaye qoyuluşunun təmin edilməsidir. Məsələyə ümumi kontekstdən yanaşsaq, deyə bilərik ki, bu gün ölkəmizdə biznes və investisiya mühiti davamlı olaraq yaxşılaşdırılır, qanunvericilik təkmilləşdirilir, dövlət-biznes dialoqu genişlənir. Sahibkarların maliyyə resurslarına daha rahat və sistemli çıxışının təmin olunması, vergi, sosial və digər güzəştlərin tətbiqi, investisiyaların stimullaşdırılması mexanizmlərinin təkmilləşdirilməsi tədbirləri biznes fəaliyyətinin daha da genişlənməsinə münbit şərait yaradır. Bununla yanaşı, məqsədyönlü Dövlət proqramları çərçivəsində bölgələrimizin tarazlı inkişafının sürətləndirilməsi prioritetinə uyğun olaraq həyata keçirilən tədbirlər bütün regionlarımızı, o cümlədən Naxçıvanı da əhatə edir. Bu istiqamətdə dövlət başçısının tapşırığına uyğun olaraq müxtəlif layihələr reallaşdırılır. Bu layihələr çərçivəsində yeni iş yerləri yaradılır ki, bu da iqtisadi inkişaf zəncirinin tamamlanmasına bilavasitə xidmət edir.

Qeyd etmək lazımdır ki, Dövlət Proqramının icrası istiqamətində görülən ardıcıl və sistemli işlərdə iqtisadiyyatın dayanıqlılığı və əhalinin rifah səviyyəsininin daha da yüksəldilməsi üçün Naxçıvanın zəngin resursları, dağ-mədən sənayesi, turizm, ticarət, nəqliyyat-logistika, habelə insan potensialından səmərəli istifadə olunması, biznesin müasir tələblərə uyğun gücləndirilməsi, regionun ixrac potensialının artırılması və digər zəruri tədbirlərin həyata keçirilməsi planlaşdırılır. Bütün qeyd edilənlərlə yanaşı, bir məsələni xüsusi olaraq vurğulamaq lazımdır ki, növbəti illərdə Zəngəzurdan keçəcək dəmir yolunun açılması Naxçıvanı mühüm nəqliyyat qovşağına çevirəcək, Azərbaycanın beynəlxalq logistika mərkəzi kimi rolunun daha da artmasına şərait yaradacaqdır…

Bu gün muxtar respublikamız üçün müəyyən edilən inkişaf konsepsiyasının ardıcıl şəkildə həyata keçirilməsi Naxçıvan Muxtar Respublikasında davamlı və tarazlı inkişafı təmin edib, rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşmasına, sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına hərtərəfli şərait yaradıb. Xüsusən də sahibkarlıq subyektlərinin genişlənməsi, onlara dövlət qayğısının artırılması istiqamətində sistemli və ardıcıl işlər görülüb. Belə ki, cari ilin 6 ayında ayrılmış kreditlər sənaye və kənd təsərrüfatı sahələrini əhatə etmiş, layihələrin maliyyələşdirilməsinə 2,4 milyon manata yaxın vəsait sərf olunmuşdur. İqtisadiyyatın sahələri üzrə verilmiş kreditin 84,2 faizi sənayenin, 15,8 faizi isə kənd təsərrüfatı sahələrinin inkişafını dəstəkləyən layihələrin payına düşmüşdür. Bununla yanaşı, kredit borclarının geri qaytarılması təmin edilmiş, nəticədə, cari ilin 6 ayı ərzində qaytarılan kreditlərin həcmi 12,1 milyon manat olmuşdur ki, bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 4,6 dəfə çoxdur.

Onu da nəzərə çatdıraq ki, 2023-cü ilin fevral ayından etibarən İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun güzəştli kredit mexanizmi Naxçıvanda fəaliyyət göstərən sahibkarlıq subyektlərini də əhatə edir.

Qeyd etmək yerinə düşər ki, ötən ay muxtar respublikamızda keçirilən “Naxçıvanda biznesə güzəştli maliyyələşmə dəstəyi” adlı konfransda sahibkarlara güzəştli maliyyə kreditlərinin verilməsi, dövlət – sahibkar münasibətlərinin qurulmasının vacibliyi, o cümlədən xarici maliyyə axınının muxtar respublikamıza cəlb edilməsi gündəmə gətirilmişdir. O cümlədən Naxçıvanda 10-a yaxın bankın iştirakı ilə keçirilən bu tədbirin məqsədi maliyyə resurslarına əlçatanlığın təmin olunması məqsədilə kredit təşkilatları ilə əməkdaşlığın genişləndirilməsi, sahibkarların güzəştli kreditlərin verilməsi qaydaları ilə ətraflı tanış edilməsi, muxtar respublikanın investisiya mühitinin tanıdılmasıdır. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda 11 prioritet istiqamət müəyyən olunub. 2024-cü il üçün 4 əsas istiqamət – aqrar sahə, turizm, nəqliyyat-logistika, yaşıl enerji, həmçinin sənaye, o cümlədən emal sənayesi və real sektorun digər sahələri əsas prioritetlərdəndir. İqtisadiyyat Nazirliyi yeni iş yerlərinin, əlavə dəyər yaradan sahələrin maliyyələşdirilməsində maraqlıdır.

Konfransda o da qeyd olunmuşdur ki, muxtar respublikada kredit borclarının geri qaytarılmasının sürətləndirilməsi istiqamətində də zəruri tədbirlər həyata keçirilib. Sahibkarlığın İnkişafı Fonduna öhdəlik olaraq vaxtında qaytarılmalı, lakin qaytarılması təmin edilməyən vaxtı keçmiş kreditlərin məbləği bu il yanvarın 1-nə 16 milyon manata yaxın olubsa, iyulun 1-nə 10,1 milyon manat və yaxud 63,5 faiz az – 5,8 milyon manat olub. Nəticədə, fondun ehtiyatlarının qalıq məbləği 2,4 dəfə artaraq 6,7 milyon manatdan 16,1 milyon manata çatıb.

Muxtar respublikada infrastruktur layihələrinin reallaşdırılması, lazımi islahatların vaxtında aparılması uğurlu nəticələr əldə olunmasına şərait yaradıb, irimiqyaslı quruculuq, abadlıq işlərinin davam etdirilməsinə, kənd təsərrüfatı, sənaye sahəsi də daxil olmaqla, bütün istiqamətlərdə yeni-yeni uğurların qazanılmasına rəvac verib. Görülən işlər muxtar respublikanın şəhər, qəsəbə və kəndlərinin simasını köklü şəkildə dəyişib, bölgələrinin potensialı artıb. Bütün bunlara əsaslanaraq, əminliklə deyə bilərik ki, bu gün Naxçıvan sosial-iqtisadi və mədəni inkişafının tarixi dönüş mərhələsini yaşamaqdadır. Və təsadüfi deyildir ki, qısa zaman ərzində Naxçıvan Muxtar Respublikası Qafqazda inkişaf tempinə, müasir iqtisadi-sosial, mədəni səviyyəsinə görə lider mövqeydə dayanan regionlardan biri olacaq. Bu istiqamətdə atılacaq addımlar, görüləcək işlər barədə cənab İlham Əliyev “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda 2-ci Şuşa Qlobal Media Forumundakı çıxışında da ətraflı mesajlar verdi. Dövlət başçısı bildirdi ki, Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan “yaşıl enerji zonası” elan edilib və Naxçıvanla da bağlı böyük planlar var. Naxçıvanda 500 meqavat həcmində Günəş elektrik stansiyası tikiləcək. Nəzərə alaq ki, bu layihənin həyata keçməsi ilə muxtar respublikamızda enerji hasilatı ondan əvvəlki dövrlərlə müqayisədə iki dəfədən daha çox artacaq və nəticədə, diyarımızın enerjiyə olan tələbatı tam ödəniləcək. Bu da Ali Baş Komandanın dövlət tədbiri zamanı söylədiyi: ***“Naxçıvanla bağlı böyük planlarımız var”*** ifadəsinin əhəmiyyətini və muxtar respublikamızın ölkəmizin yürütdüyü siyasətdə tutduğu rolun vacibliyini bir daha göz önünə gətirir.



**Məcid RƏŞADƏTOĞLU**

# Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Naxçıvan Muxtar Respublikasında səfərdə olub










Səfər çərçivəsində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, COP29-un müəyyən edilmiş prezidenti, Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və konfrans iştirakçıları Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsini ziyarət edib, önünə tər gül dəstələri düzüblər.

Daha sonra səlahiyyətli nümayəndə Fuad Nəcəfli və Muxtar Babayev Nazirliyin əməkdaşları ilə görüşüb, nazirliyin maddi-texniki bazası ilə tanış olublar.

# İqlim dəyişikliyi ilə mübarizəyə həsr olunan növbəti konfrans Naxçıvanda keçirilib






İqlim dəyişikliyinin təsirlərinin azaldılması istiqamətində Azərbaycanda həyata keçirilən ardıcıl tədbirlər və yerlərdə bu sahədə görülən işlər Naxçıvan Muxtar Respublikasında təşkil olunan konfransda müzakirə olunub.

Konfransda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Xanlar Mustafayev çıxış edib.






"İqlim dəyişikliyi ilə mübarizədə görülən tədbirlər və iqlim dəyişikliklərinin ətraf mühitə təsirləri, alternativ enerjidən istifadə" mövzusuna həsr edilən konfransda COP29-un gündəliyindən irəli gələn məqsədlər və onların muxtar respublikada yerinə yetirilməsi ilə bağlı hesabatlar dinlənilib.

Konfrans beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndələrinin və yerli mütəxəssislərin iştirakı ilə panel sessiyalarla davam edib.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Naxçıvana səfəri çərçivəsində Babək rayonunun Xalxal kəndi yaxınlığında 40 hektar sahədə tikilib istifadəyə verilmiş



Naxçıvan Günəş Elektrik Stansiyasına baxış keçirib, "yaşıl enerji"yə keçid istiqamətində görülmüş işlərlə tanış olub.

Qeyd edək ki, Naxçıvan Günəş Elektrik Stansiyası Qaradağ Günəş Elektrik Stansiyası istismara veriləndə qədər Azərbaycanın ən böyük günəş elektrik stansiyası hesab edilib.

# Nazirlər Kabinetində bir sıra aktlar qəbul edilib

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 31 iyul tarixli Qərarı ilə "Naxçıvan Təlim Mərkəzi" publik hüquqi şəxsin Nizamnaməsi" təsdiq edilmişdir.

Nizamnamədə Naxçıvan Təlim Mərkəzinin muxtar respublikanın dövlət orqanlarında (qurumlarında) çalışan işçilərin peşəkar inkişafının dəstəklənməsi, gənclərin şəxsi və peşəkar inkişafı üçün müxtəlif mövzularda kursların təşkili və təlimlərin keçirilməsi, eyni zamanda peşə qabiliyyətlərinin yüksəldilməsi məqsədilə fəaliyyət göstərdiyi müəyyən edilmiş, həmçinin Mərkəzin fəaliyyət istiqamətləri, vəzifələri, hüquqları, idarə olunması forması, nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları, ləğvi və yenidən təşkili qaydası öz əksini tapmışdır.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 31 iyul tarixli Sərəncamı ilə "Naxçıvan Təlim Mərkəzi" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibi təsdiq edilmişdir.

Sərəncama əsasən Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini şuranın sədri, Naxçıvan Muxtar Respublikasının təhsil naziri, Naxçıvan Muxtar Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri, Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri, Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri, Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri isə şuranın üzvləri müəyyən edilmişdir.

# Dövlət Proqramı çərçivəsində muxtar respublikada ilk dəfə olaraq telekommunikasiya xətlərinin alternativliyi təmin edilir

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən zəruri tədbirlər həyata keçirilir.



Dövlət Proqramında icrası nəzərdə tutulmuş Sədərək-Naxçıvan-Ordubad və Naxçıvan-Şahbuz istiqamətində yeni fiber-optik magistral şəbəkəsinin yaradılmasının birinci mərhələsi uğurla başa çatdırılıb.

Məlumat üçün qeyd edək ki, kəşfiyyat-layihələndirmə işləri görülüb, ərazi quruluşu öyrənilib, artıq magistralın infrastrukturunun keçəcəyi ərazilər təyin olunub. Mövcud infrastrukturla inteqrasiyası və ən ucqar ərazilərdə belə alternativliyin təmin olunması nəzərə alınıb, təchizat və tikintiyə hazırlıq işləri həyata keçirilib.

Layihənin icrası istiqamətində lazım olan mal-material və aksessuarlar Dövlət Proqramı çərçivəsində təmin olunub və tikinti işləri həyata keçirilib. Layihənin idarə edilməsi mərhələləri, eləcə də tikinti işləri nazirlik və tabeli qurumları tərəfindən həyata keçirilib. Artıq layihənin əsas texnoloji komponentlərinin bir hissəsi muxtar respublikaya gətirilib. Kabel infrastrukturunun və fiber-optik aksesuarların, o cümlədən texnoloji avadanlıqların təchizatı yekunlaşdıqca quraşdırma və şəbəkələrin optimallaşdırma işləri həyata keçirilməkdədir. Texnoloji infrastrukturun çox hissəsinin tikintisi yekunlaşıb. Naxçıvanın coğrafi şəraiti nəzərə alınaraq layihənin kritik komponentlərinin tikintisinin payız aylarınadək yekunlaşdırılması nəzərə tutulub.

Muxtar respublikada ilk dəfə olaraq coğrafi cəhətdən fərqli ərazilərdən keçərək Sədərək-Naxçıvan-Şahbuz-Ordubad-Culfa-Naxçıvan istiqamətində magistral fiber-optik xətləri çəkilir ki, bunun da nəticəsində mövcud magistral xətlərə coğrafi alternativlik təmin ediləcəkdir.

Qeyd edək ki, muxtar respublikanın lokal şəbəkələrinin dayanıqlı birləşdirilməsi və tranzit tutumların daşınması üçün hədəflənən bu şəbəkə üçün geniş imkanlar yaradılır. Bu layihə sayəsində Şahbuz və Ordubad rayonlarının rabitə kanallarının alternativliyi təmin edilir ki, bu da adıçəkilən şəhərlərin, eləcə də kəndlərin telekommunikasiya xətlərinin ilk dəfə olaraq coğrafi alternativliyinin təmin edilməsinə şərait yaradacaqdır.

Bir sözlə, Sədərək-Naxçıvan-Ordubad və Naxçıvan-Şahbuz istiqamətlərində yeni fiber-optik magistral şəbəkəsinin yaradılması Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına böyük töhfə verəcəkdir. Layihə çərçivəsində həyata keçirilən işlər, eləcə də telekommunikasiya sahəsində ən müasir texnologiyaların tətbiqi telekommunikasiya şəbəkələrinin və yüksəksürətli internet xidmətlərinin çeşidini və keyfiyyətini artıracaqdır. Əhalinin keyfiyyətli internet xidmətlərinə çıxışının təmin edilməsi nəticəsində görüləcək işlər regionun texnoloji hazırlığının və infrastrukturun gücləndirilməsinə hərtərəfli şərait yaradacaqdır.

# *"Vətəndaşların seçki hüququnun konstitusion əsasları"* mövzusunda tədbir



Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) və Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən birgə təsdiq olunmuş tədbirlər planına uyğun olaraq "Vətəndaşların seçki hüququnun konstitusion əsasları" mövzusunda tədbir keçirilib.

Naxçıvan Dövlət Texniki Kollecində keçirilən tədbirdə dövlət orqanlarının əməkdaşları, seçki məntəqələrinin məsul şəxsləri, gənc seçicilər və media nümayəndələri iştirak ediblər.

Əvvəlcə tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Ombudsman aparatı tərəfindən hazırlanmış "Azərbaycan parlamenti müstəqillik illərində" adlı videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən Ombudsman Günay Rzayeva vətəndaşların seçki hüququnun daha səmərəli təmin olunması və seçki sisteminin normativ-hüquqi bazasının təkmilləşdirilməsi, demokratik dövlət quruculuğu, insan hüquq və azadlıqlarının təmini haqqında danışıb.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Əkrəm Hüseynzadə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərin keçirilməsi ilə bağlı görülən işlər və birgə təşkil edilən maarifləndirici tədbirlərin əhəmiyyəti barədə məlumat verib.

Sonra "Vətəndaşların seçki hüququnun təmini" mövzusunda təqdimat verilib, ilk dəfə seçki hüququndan istifadə edən gənclərə "Mənim seçki hüququm" adlı bukletlər paylanılıb, xatirə fotosu çəkilib.

# Prezident İlham ƏLİYEV:

***"Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvana həmişə böyük diqqət və qayğısı var idi. Xüsusilə 1990-cı illərin əvvəllərində naxçıvanlılar Heydər Əliyevi özlərinə rəhbər seçəndən sonra. Həmin ağır, çətin vəziyyətdə Naxçıvanda sabitliyin təmin olunması, Naxçıvanda inkişafın təmin olunması məhz Heydər Əliyevin və naxçıvanlıların birgə fəaliyyəti nəticəsində mümkün olmuşdur. Naxçıvanlılar bu çətin sınaqdan şərəflə çıxdılar və o illər ərzində təməli qoyulmuş layihələr, işlər bu gün öz bəhrəsini verməkdədir."***




# Əyilməzlik ünvanıdır Naxçıvan

Hər daşı, qayası ox nişanlı, hər zümrüdgözlü bulağının pıçıltısında həzin ana laylası çalınan doğma Naxçıvan diyarımız, qədimdən-qədim Naxçıvan şəhəri bina olandan bəri heç vaxt, heç zaman indiki kimi abadlıq adlı sevincin vüsalına qovuşmayıb. Bu inkişafı və tərəqqini görənlər təəccüblənirlər. Təəccüblənirlər ki, son illər ərzində neçə-neçə keçilməz yollar keçib Nuh nəfəsli Əcəmi yurdu. Azərbaycanın bütün bölgələrində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da Prezident cənab İlham Əliyevin qayğısı sayəsində hərtərəfli inkişafa nail olunub. Beş min ildən artıq şəhərsalma tarixi olan ulu Naxçıvan əsrlərin, min illərin tarix yollarında heç vaxt yorulmayan yeniləşən diyara çevrilib. Naxçıvan artıq bu gün yeni yollarla, geniş prospektlərlə, əzəmətli binalarla, gözoxşayan, könülsevindirən müasir abidələri, inkişafın nəhəng addımları ilə irəliləyən qədim tarixli yeni şəhərdir.

Fərəhləndirici haldır ki, Naxçıvanın yüksək sosial, iqtisadi və mədəni inkişafı 100 illik muxtariyyət tarixinin zirvəsi kimi dəyərləndirilir. "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli Sərəncamında da deyildiyi kimi: *"Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır. Naxçıvan şəhəri Azərbaycan Atabəylər dövlətinin paytaxtı olmuş, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları indi də Naxçıvanın görünüşünə xüsusi rəng qatır. Naxçıvan əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir".*

Tarixboyu başı çox bəlalar çəksə də, dəfələrlə yüksəliş dövrü yaşamış, zəngin mədəni irs qoymuş qədim Naxçıvan bugünkü inkişafı ilə sanki çəkdiyi müsibətlərin əvəzini çıxır, ulu köklər üstündə qolqanad açıb daha xoş sabahlara doğru pərvazlanır. Tarixin yeni Naxçıvanı dostlarımızı sevindirir, düşmənlərə isə gözdağı verir. Muxtar respublika milli dəyərlərə söykənərək inkişaf etdirilir, Vətən, yurd sevgisi üzərində müasir Naxçıvan ucaldılır. Xalqımızın böyük oğlu Heydər Əliyev əsl vətəndaş olmaq üçün ləyaqət göstərməyi, xalq, Vətən naminə çalışmağı, Vətən sevgisini, doğma torpağa, doğma yurda bağlılığı əməli işlə nümayiş etdirməyi tövsiyə edirdi: ***"Həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil. Onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır".***

Bu gün Naxçıvan Muxtar Respublikası yenidən qurulur. Azərbaycanın ən qədim yurd yerlərindən biri, hər daşında, qayasında minilliklərin izini yaşadan, bəşər sivilizasiyasının ilkin məskənlərindən sayılan Naxçıvanın hər bir bölgəsi, kəndi, şəhəri, qəsəbəsi Prezident cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində tərəqqi və inkişaf yolundadır. Qazanılan nə varsa, hamısı Ulu Öndərimizin ideyalarının ardıcıllıqla həyata keçirilməsinin nəticəsidir. Ümummilli Liderimiz Heydər Əliyev doğma Naxçıvan haqqında deyirdi: ***"Naxçıvan Azərbaycanın ən qədim diyarlarından biridir, çox zəngin tarixə malik olan Azərbaycanın bir hissəsidir, 3500 il tarixi olan Azərbaycan torpağıdır. Bu tarix çox zəngin hadisələrlə doludur. Bunların hamısı Azərbaycan üçün Naxçıvanın nə qədər qiymətli olduğunu həmişə göstərib, göstərir və gələcəkdə də göstərəcəkdir".*** Böyük fəxrlə, qürur hissi ilə deyə bilərik ki, dahi rəhbərin arzu və istəkləri naxçıvanlılar tərəfindən sonsuz məhəbbətlə həyata keçirilmişdir. Düşmən sərhədində alınmaz qalaya çevrilmiş müasir Naxçıvan bundan sonra da böyük addımlarla irəliləyib inkişaf edəcək. Bu torpağını və məmləkətini sevən hər bir Azərbaycan vətəndaşının böyük arzusu və inamıdır. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamında da deyildiyi kimi: *"Naxçıvan Muxtar Respublikası bu gün Dövlət proqramlarını və infrastruktur layihələrini uğurla gerçəkləşdirir, ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir. Hazırda Naxçıvan beynəlxalq miqyaslı mötəbər tədbirlərin ardıcıl keçirildiyi məkanlardandır. Azərbaycanın ətraf mühitin mühafizəsinə yönəlmiş fəaliyyəti çərçivəsində muxtar respublika "yaşıl enerji zonası" elan olunmuşdur. Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat imkanlarının genişləndirilməsi istiqamətində işlər davam etdirilir".*

Naxçıvanda bütün istiqamətlərdə başlanan yeni islahatlar praktik şəkildə özünü doğruldur və muxtar respublikanın davamlı inkişafını təmin edən düzgün yol seçilib. Ən əsası Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin rəhbərliyi ilə qısa zamanda əldə edilmiş nailiyyətlər, hər bir yüksəliş nümunəsi təsdiq edir ki, Prezident cənab İlham Əliyevin qarşıya qoyduğu tapşırıq və tövsiyələr Naxçıvanda vaxtında və layiqincə icra olunur.

Ötən 20 ildən artıq dövr ərzində Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılan hər bir uğur göstərir ki, dahi şəxsiyyət Heydər Əliyevin şah əsəri və əmanəti olan Azərbaycan həm etibarlı əllərdə, həm də dinamik yüksəliş yolundadır. Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, torpaqlarımızın işğaldan azad olunmasını və ərazi bütövlüyümüzün bərpasını təmin edən Prezident cənab İlham Əliyev bununla həm də Ulu Öndər Heydər Əliyevin arzularını və vəsiyyətini layiqincə yerinə yetirdi. Bu tarixi uğurlar göstərir ki, Heydər Əliyev ideyaları Prezident cənab İlham Əliyevin liderliyi ilə layiqincə davam etdirilir. Ümummilli Lider Heydər Əliyevin xilas etdiyi, inkişaf yoluna çıxardığı Naxçıvan Muxtar Respublikasının da uğurlarının təməlində Ulu Öndərin əbədiyaşar ideyaları dayanır. Hazırda Prezident cənab İlham Əliyevin diqqət və qayğısı ilə inkişafının yeni mərhələsinə qədəm qoyan muxtar respublikada həyata keçirilən islahatlar cəmiyyət həyatının bütün sahələrinə dinamizm, canlanma gətirib, inkişafı daha da sürətləndirib. Bütün bunlar onu deməyə əsas verir ki, Naxçıvan tezliklə daha möhtəşəm uğurları ilə inkişafın yeni nümunələrini yaradacaq.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1990-cı ilin iyul ayında Naxçıvana gəlməsi, burada yaşayıb siyasi fəaliyyət göstərməsi blokada nəticəsində iqtisadi və siyasi böhran məngənəsində çırpınan, erməni yaraqlılarının hücumları ilə təkbətək qalan muxtar respublikanı məhv olmaq təhlükəsindən xilas etdi. Ulu Öndər Heydər Əliyev Naxçıvanda siyasi fəaliyyət göstərdiyi qısa zaman kəsiyində müstəqil, demokratik və dünyəvi dövlət yaradılması üçün mühüm siyasi və ideoloji amilə çevrilən tarixi qərarlar qəbul etdi. Azərbaycanın müstəqil dövlət kimi sonrakı fəaliyyətinin bir sıra konseptual istiqamətləri məhz bu dövrdə işlənib hazırlandı. İlk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Dövlət Bayrağı kimi qəbul olundu.

Ümummilli Liderimizin Naxçıvana gəlişi, xalqın təkidli tələbi və istəyi ilə muxtar respublikanın rəhbəri seçilərək son dərəcə ağır vəziyyətdə olan bu ulu diyarı mətanətlə qoruması, əsl nicat yoluna çıxararaq hərtərəfli yüksəlişə qovuşdurması böyük əhəmiyyət daşımaqla, bütövlükdə, ölkəmiz üçün mühüm bir hadisəyə çevrilmişdi. Dahi şəxsiyyətin Naxçıvanın xilaskarı kimi göstərdiyi misilsiz xidmətlərindən biri də o idi ki, Ulu Öndər hələ sağlığında Naxçıvanla bağlı arzularının gələcəkdə gerçəkləşməsi, quruculuq xəttinin sonrakı dövrlərdə də uğurla davam etdirilməsinin qayğısına da qalmışdı. Prezident cənab İlham Əliyevin dediyi kimi: ***"Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvana həmişə böyük diqqət və qayğısı var idi. Xüsusilə 1990-cı illərin əvvəllərində naxçıvanlılar Heydər Əliyevi özlərinə rəhbər seçəndən sonra. Həmin ağır, çətin vəziyyətdə Naxçıvanda sabitliyin təmin olunması, Naxçıvanda inkişafın təmin olunması məhz Heydər Əliyevin və naxçıvanlıların birgə fəaliyyəti nəticəsində mümkün olmuşdur. Naxçıvanlılar bu çətin sınaqdan şərəflə çıxdılar və o illər ərzində təməli qoyulmuş layihələr, işlər bu gün öz bəhrəsini verməkdədir".***

Bu gün inkişaf edən, müasirləşən, abadlaşan qədim Naxçıvan mənfur düşmən üçün ikiqat gözdağına çevrilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamında deyilir: *"Strateji mövqeyi ilə seçilməsi tarixən Naxçıvanı vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu diyar qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf etmişdir".*

*Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində Naxçıvanın uzun müddət tam təcrid və ağır blokada şəraitində olduğu vaxtlarda belə qəhrəman əhalisi bu qədim Azərbaycan torpağını işğal təhlükəsindən qurtarmış, Azərbaycanın müstəqilliyi uğrunda atdığı cəsarətli addımlarla milli dövlətçiliyin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsi naminə fədakarlıq nümayiş etdirmişdir".*

Ümummilli Liderin inkişaf strategiyasının Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilməsi Heydər Əliyev ideyalarına sonsuz sədaqət sayəsində mümkün olmuşdur. Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının inkişafının əsasında Heydər Əliyev siyasi xətti dayanır. Şübhəsiz ki, dahi rəhbərin yoluna sədaqət qarşıda dayanan vəzifələrin uğurlu icrasını təmin edəcəkdir. Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***"Bizim inkişafımızın təməlində Ulu Öndər Heydər Əliyev siyasəti dayanır. Biz bu siyasətə sadiqik, tutduğumuz yoldan dönməyəcəyik, daim irəli gedəcəyik".***

**Məhəbbət MİRZƏYEVA**

## Naxçıvan iqtisadi rayonu üzrə turizm inkişaf planı turizm sənayesi nümayəndələri ilə müzakirə edilib

Ordubad rayonunda "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın "2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı"nın müvafiq bəndinə uyğun olaraq hazırlanmış Naxçıvan iqtisadi rayonu üzrə turizm inkişaf planının maraqlı tərəflərlə müzakirəsi aparılıb.



"Şərq qapısı" xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin, Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin, Azərbaycan Turizm Bürosunun, Birləşmiş Millətlərin İnkişaf Proqramının (UNDP) əməkdaşları və muxtar respublikanın turizm sənayesinin aparıcı nümayəndələri iştirak ediblər.

Tədbirdə giriş sözü ilə çıxış edən Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin Statistika və sertifikatlaşdırma sektorunun müdiri Süleyman Rüstəmov Dövlət Proqramının əhəmiyyətini vurğulayıb, bütün sahələrin inkişafı ilə yanaşı, turizmin inkişafının da Dövlət Proqramının prioritetləri sırasında olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Qeyd olunub ki, müvafiq bəndin icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə birgə kompleks iş aparıb, ayrı-ayrı vaxtlarda onlayn görüşlər və muxtar respublikaya səfərlər həyata keçirilib.

Vurğulanıb ki, inkişaf planının hazırlanmasında istifadə edilməsi üçün muxtar respublikanın turizm destinasiyalarının qiymətləndirilməsi aparılıb, həmçinin hotel və restoranlar üzrə "Təlim ehtiyacları sorğusu" keçirilib, nəticələr haqqında məlumatlar Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinə təqdim edilib. Bunlarla yanaşı, qarşılıqlı fikir mübadiləsi əsasında muxtar respublika üzrə Şahbuz, Şərur-Kəngərli, Culfa-Ordubad rayonlarının və Naxçıvan şəhərinin müəyyən ərazilərini əhatə edən turizm klasterləri formalaşdırılıb.

Sonra Azərbaycan Turizm Bürosunun əməkdaşı tərəfindən slayd vasitəsilə inkişaf planı tədbir iştirakçılarına təqdim olunaraq şərh edilib.

İnkişaf planının təkmilləşdirilməsi, özəl sektor nümayəndələrinin maraqlarının təmin olunması, çatışmazlıqların aradan qaldırılması, çətinliklərin həll yolunun birgə müəyyən edilməsi, təkliflərin dinlənilməsi və digər məqsədləri özündə ehtiva edən müzakirələr zamanı qarşılıqlı fikir mübadiləsi aparılıb.

Müzakirə olunan mövzu ətrafında Birləşmiş Millətlərin İnkişaf Proqramının layihə rəhbəri Fərid Əliyev, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin böyük məsləhətçisi Kənan Salamzadə, Azərbaycan Turizm Bürosunun mütəxəssisi Simran Hacıliyev, Azərbaycan Turizm Bürosunun eksperti Donald Taylorun çıxışları dinlənilib.

Qeyd edək ki, Naxçıvan iqtisadi rayonu üzrə turizm inkişaf planının maraqlı tərəflərlə müzakirəsi müvafiq olaraq Şahbuz rayonunda və Naxçıvan şəhərində aparılıb.

## Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Məktəbinə Kembric proqramı ilə qəbul imtahanı aparılıb



Naxçıvanda ilk dəfə olaraq Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Məktəbi Kembric (Cambridge School) statusu alıb. NDU-nun Beynəlxalq Məktəbinə Kembric Beynəlxalq Təhsil proqramı ilə 2024-cü ilin sentyabr ayından etibarən 1-ci və 6-cı siniflər üçün tədrisin həyata keçirilməsi istiqamətində beynəlxalq lisenziya verilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə təsdiq olunan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda qeyd olunan mühüm məsələlərdən biri də Naxçıvan Dövlət Universitetinin nəzdində İngilisdilli orta məktəbin fəaliyyətə başlaması olub.

Bu istiqamətdə görülən işlərin nəticəsi olaraq NDU-nun Beynəlxalq Məktəbinə Kembric Beynəlxalq Təhsil proqramı ilə qəbul imtahanı keçirilib.

Qəbul imtahanına 1-ci və 6-cı siniflərdə təhsil alacaq şagirdlər qatılıb. İmtahan prosesi 3 saat davam edib.

1-ci sinif üçün qəbul prosesi şifahi imtahan şəklində təşkil edilib. Şagirdlərin ingilis dili əlifbası, riyazi bilikləri, ətraf mühitlə tanışlığı yoxlanılıb.

6-cı sinif şagirdlərinə isə ingilis dili qrammatikasından 10, riyazi biliklər 30, ingilis dilində oxu materialları 30, dinləmə 20 sual olmaqla, ümumilikdə, 90 sual təqdim edilib.

Qeyd edək ki, NDU Beynəlxalq Məktəbində Kembric proqramı ilə 2024-cü ilin sentyabr ayından etibarən tədrisə başlanılacaq. Tədris tamamilə ingilis dilində həyata keçiriləcək. Böyük Britaniyadan müəllimlərin cəlb ediləcəyi tədris üçün yerli müəllimlərin də lazımi tələblərə cavab verməsi məqsədilə müxtəlif təlimlər təşkil olunub və təlimlər mütəmadi olaraq davam etdirilir.

## Aqrar sahədə subsidiyaların verilməsi qaydaları ilə bağlı maarifləndirici tədbir olub

Avqustun 6-da Sədərək rayonunda daşınmaz əmlakın dövlət reyestrindən çıxarış əsasında subsidiyaların verilməsi ilə bağlı maarifləndirici tədbir keçirilib.



Tədbirdə Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini Xəyalə Dadaşova bildirib ki, Naxçıvanda aqrar subsidiyalarla təminat uğurla aparılır. Ötən və cari ildə dövlət dəstəyi hesabına gübrələrin verilməsi, o cümlədən nağd vəsaitlərin ödənişləri təmin edilib.

Əkinlərin bəyanı üçün son tarixin 30 dekabr olduğunu xatırladan nazir müavini 2025-ci il yanvarın 1-dən etibarən aqrar sahədə subsidiyaların daşınmaz əmlakın dövlət reyestrindən çıxarış əsasında veriləcəyini diqqətə çatdırıb. Qeyd olunub ki, bu məsələ Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 7 oktyabr 2021-ci il tarixdə imzalanan "Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı bəzi məsələlər haqqında" Fərmanda əksini tapıb. Torpaq üzərində mülkiyyət hüquqlarını rəsmiləşdirmədikləri təqdirdə istehsalçıların növbəti ildən subsidiya əldə edə bilməsi mümkün olmayacaq.

Xəyalə Dadaşova ötən ildən başlayaraq kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən tədbirləri qeyd edib, həmçinin aqrar subsidiyalar, lizinq xidmətləri, o cümlədən payızlıq əkinlər üçün hazırlığın aparılması, sertifikatlı toxumlardan istifadənin əhəmiyyəti, əkinlərdə aqrotexniki qaydalara riayət olunması barədə ətraflı məlumat verib.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini Müslüm Cabbarzadə torpaq üzərində mülkiyyət hüququnun təsdiqlənməsinin əhəmiyyəti və qaydaları haqqında məlumat verib. Rəis müavini qeyd edib ki, sözügedən məsələ ilə bağlı vətəndaşlara kömək məqsədilə səyyar xidmətlər də təşkil olunur. Vətəndaşlar torpaq üzərində mülkiyyət hüququnu təsdiqləmək üçün bu xidmətlərdən yararlana, həmçinin Əmlak Məsələləri Dövlət Xidmətinin yerli bölmələrinə müraciət edə bilərlər.

Tədbirdə suallar cavablandırılıb, səsləndirilən təkliflər qeydiyyata alınıb.

## Özünüməşğulluq proqramının əhatə dairəsi genişləndirilir

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən həyata keçirilən aktiv məşğulluq tədbirlərindən biri də özünüməşğulluq proqramıdır. Sosial-iqtisadi, mədəni siyasətimizin əsasını təşkil edən bu sahənin günün müasir tələbləri səviyyəsinə qaldırılması, müasir inkişaf strategiyasının qurulması əsas amil kimi çıxış edir.

Görülən işlər, qarşıya qoyulmuş məqsədlərin həlli sahəsində atılan addımlar barədə daha ətraflı məlumat almaq üçün Özünüməşğulluğun təşkili və peşə hazırlığı şöbəsinin müdiri Səbuhi Salahov ilə həmsöhbət olduq. O bildirdi ki, özünüməşğulluq proqramı çərçivəsində DMA tərəfindən kiçik biznesə başlamaq üçün istəyi, minimum potensialı, bacarıqları, təsəvvürü olan əmək qabiliyyətli, həmçinin məhdud əmək qabiliyyətli olan işsiz və işaxtaran şəxslərin dövlətin dəstəyi ilə öz ailə təsərrüfatlarını, kiçik bizneslərini yaratmalarına dəstək göstərilir: "Bunun üçün Dövlət Məşğulluq Agentliyinin şəhər və rayon şöbələrinə müraciət etmək kifayətdir. Burada vətəndaşın qeydiyyatı aparılır, karyera məsləhətçiləri tərəfindən məşğulluq imkanları qiymətləndirilir və fərdi məşğulluq proqramı tərtib olunur".

Səbuhi müəllim qeyd etdi ki, 2024-cü ilin birinci yarım ili ərzində özünüməşğulluq proqramına, ümumilikdə, 533 nəfər cəlb edilib. Ötən yarım il ərzində biznes təlimlərini uğurla bitirən işsiz şəxslərdən 107 nəfər istehsal və xidmət istiqaməti üzrə öz kiçik biznesini qurub. Müvafiq aktivlərlə təmin olunmuş şəxslər avtoçilingər xidmətləri, avtoelektrik xidməti, avtomobil şinlərinin bərpası və təmiri xidmətləri, avtorəngsaz, avtotəmizləmə xidmətləri, ayaqqabı təmiri və istehsalı, broyler inkubatoru, çatdırılma, dönərxana, kiçik dəmirçi sexi, kiçik dərzi sexi, kiçik dülgər sexi, kiçik fotoatelye, kişi bərbərxanası, PVC qapı və pəncərə istehsalı, qadın gözəllik salonu, telefon təmiri, un məmulatları istehsalı zərfləri ilə təmin edilib. Həmçinin arıçılıq təsərrüfatı, qoyunçuluq təsərrüfatı və maldarlıq zərfi üzrə, ümumilikdə, 426 nəfər kənd təsərrüfatı istiqaməti üzrə təsərrüfatlarını qurub. Hazırda proqramın təşkili üzrə biznes təlimlər və əmlak paylanışı istiqamətində işlər davam etdirilir.

Müsahibimiz hazırda bu istiqamətdə işlərin davam etdirildiyini vurğuladı. Onu da qeyd etdi ki, özünüməşğulluq proqramına işsiz kimi qeydiyyata alınmış şəxslər (işsizlikdən sığorta ödənişi alan işsiz şəxslər istisna olunmaqla), eyni zamanda mülkiyyətində kənd təsərrüfatına yararlı pay torpağı olub, digər məşğulluğu olmayan, işaxtaran kimi qeydiyyata alınmış şəxslər müraciət edə bilər. Proqramın icrası zamanı şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları, ünvanlı dövlət sosial yardımı alan şəxslər, əlilliyi olan şəxslər və 18 yaşadək əlilliyi olan şəxslər, 1 ildən artıq işsiz kimi qeydiyyatda olan şəxslər, pensiya yaşına iki ildən az qalmış şəxslər, cəzaçəkmə müəssisəsindən azad edilmiş işsiz şəxslər üstün hüquqa malikdirlər.

Mövzumuzla əlaqəli olaraq avadanlıqlarla təmin edilmiş şəxslərin bir neçəsi ilə həmsöhbət olduq.

Babək rayon Cəhri qəsəbə sakini Türkanə İsmayılova deyir ki, həvəskar fotoqraf kimi fəaliyyət göstərir. Peşəkar olmaq və lazımlı avadanlıqları almaq üçün Dövlət Məşğulluq Agentliyinin Naxçıvan Şəhər Şöbəsinə müraciət edib: "Şöbə əməkdaşları bunu nəzərə alaraq məni kurslar və təlimlərə cəlb etdilər. Bu təlimlərdə uğurla iştirak etdim, daha sonra kompüter, printer, fotoaparat, işıqlandırıcı qurğu və digər zəruri avadanlıqlar verildi. Məqsədim gələcəkdə işimdə peşəkar olub daha yaxşı fotolar çəkməkdir".

Müsahibimiz Ordubad rayon sakini Günay Xudanova beş ildir, dərzi kimi fəaliyyət göstərir, ancaq müəyyən avadanlıqları olmadığından çətinlik çəkib. Buna görə də qərara alıb ki, Dövlət Məşğulluq Agentliyinin Naxçıvan Şəhər Şöbəsinə müraciət etsin. Təlimləri başa çatdıqdan sonra dərzilik işi üçün lazım olan avadanlıqlarla təmin olunub. Müsahibimiz bildirdi ki, hazırda yaşadığı ünvanda dərzi kimi fəaliyyət göstərir. Gələcəkdə məqsədi işini bilən peşə sahiblərindən olmaqdır.



Həmsöhbətlərimizin fikirlərindən də aydın oldu ki, bu gün dövlət siyasətinin əsasında cəmiyyətin qayğıları ilə maraqlanmaq, onların rahatlığını nəzərə almaq durur. Bu da günümüzdə insan amilinə verilən dəyərin bariz nümunəsidir.

**Bülbül QULİYEVA**





## Təmiz ekoloji mühit – sağlam həyat

Şahbuz Şəhər İnzibati ərazi dairəsi üzrə nümayəndəliyin binasında Şahbuz Rayon İcra Hakimiyyətinin, Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Təmiz ekoloji mühit – sağlam həyat" mövzusunda maarifləndirici tədbir keçirilib.

Tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və ərazi bütövlüyümüzün təmin olunmasında canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Şahbuz Rayon İcra Hakimiyyəti başçısı yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi Ülvi Əliyev, məsləhətçi-psixoloqu Nubar Səfərova və Şahbuz Rayon Gənclər və İdman İdarəsinin rəisi Elvin Hüseynli çıxış ediblər.



Çıxışlarda qeyd edilib ki, ekoloji siyasətin əsasını təşkil edən ətraf mühitin sağlamlaşdırılması sahəsində nəticə əldə etmək məqsədilə respublikamızda bir sıra mühüm qanunlar qəbul olunub, normativ-hüquqi sənədlər, Dövlət proqramları hazırlanıb və təsdiq edilib. Respublika üçün aktual olan ekoloji problemlərin dayanıqlı inkişaf prinsipləri əsasında həll edilməsi məqsədilə müvafiq Dövlət proqramları çərçivəsində tədbirlər görülür.

Qeyd edilib ki, əhalinin ekoloji təhsili və maarifləndirici tədbirlərin həyata keçirilməsi insanların ətraf mühitə daha qayğı ilə yanaşmasına imkan yaradacaq.

Tədbirdə Şahbuz rayonunun təhsil, mədəniyyət və digər sahələrindən olan 32 nəfər iştirak edib.

# Haçadağa qucaq açan, Arazı qoynuna çəkən, tarixə söykənən

# Nəhəcir



Yolumuz uzaq deyildi, ancaq gedəcəyimiz yerin təhlükəli olduğunu bilirdik. Bura gedən yolun üzərində sıldırımlı qayalar olduğundan ilin istənilən fəslində getmək mümkün deyil. Hələ yayın istisində təbiətin qoynunda rastına zəhərli ilanlar çıxarsa... Etiraf edim ki, səfərin vaxtını doğru seçməmişdik...

...Muxtar respublikanın istənilən nöqtəsindən baxdıqda onun qədimliyini, tarixini, əzəmətini simvolizə edən Nəhəcir dağını görmək mümkündür. Öz məğrur duruşu ilə bu yaşayış məntəqəsini ağuşuna alıb sanki bu dağ, kənd isə onun yamacında özünə lövbər salmış gəmini xatırladır. Uzaqdan parıldayan Günəş şüaları Nəhəcir dağının sıldırımlı qayalarından boylanaraq kənddə Tanrının yaratdığı möcüzəni özündə sinxronizə edir. Tanrı bu kəndə gözəl təbiətlə yanaşı, zəngin yeraltı sərvətlər də bəxş edib. Düşünürsən, görəsən, nə vaxt yaranıb bu dağ, insanlar burada nə ilə məşğul olub? Yəqin, isti yay aylarında əzəmətli dağın sərinliyi kənd sakinlərini bihuş edər. Elə kəndi gəzə-gəzə bunu düşünürdük ki, qulağımıza bir səs gəlir: "Buranın istisi şəhərdən daha çox olur, günəşli gündən sonra meh əsməsi ilə dağın istisi bütün kəndi bürüyür (gülür)". Nəhəcir kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Şamxal Ələkbərovla görüşüb bunun səbəbini soruşuruq. Deyir ki, iyul-avqust aylarında hava isti olarkən dağı, qayanı qızdırır: "Həmin istidə ilanlar dağlardan çıxan bulaqların dibində yatırlar. Nəhəcir tarixi kənddir, gördüyünüz o dağ (Nəhəcir dağını göstərir) nəinki bu kəndin, bütün muxtar respublikanın simvoludur".



Naxçıvanın ən qədim yaşayış məskənlərindən biridir Nəhəcir. Tədqiqatçıların fikrincə, bu kəndin adı Nuh Peyğəmbərin adı ilə əlaqəlidir. "Nəhəcir" sözü "nuh" və "cır" sözündən ibarətdir, mənası isə "Nuhun yamacı" deməkdir. Nəhəcir dağının coğrafi-strateji cəhətdən əlverişli olan hündür və sıldırım qayalı cənub hissəsi üzərində Nəhəcir qalası da yerləşir. Elə bu qalaya getmək istədiyimizi deyirik Şamxal müəllimə. Gülümsəyir, vaxtı düzgün seçmədiyimizi bildirir. "Ora ya səhər Günəş çıxmamışdan, ya da axşam gün batana yaxın getmək lazımdır. İsti havada orada ilanlar mələyir", – deyir.

Gün batımını gözləyərkən fürsətdən istifadə edib kənd sakinləri ilə görüşürük. Kənd ağsaqqalı Rəfael Yaqubov Nəhəcir dağını göstərərək deyir ki, bu dağ bir ailəni xatırladır: "Dağın ən uca zirvəsi ailənin böyüyü – atadır. Yanında nisbətən balaca olan sıldırımlı qaya anadır. Hər iki "valideynin" yanında olan kiçik qaya isə onların övladıdır. Sanki yamacda əyləşən bir ailəni xatırladır bu mənzərə. Elə dağın adının da mənası "yamac", "düzlük" kimi deyilir. Nəhəcir hər zaman digər kəndlərdən fərqlənib. Bu yurd yeri qədim yaşayış məskənidir. Kəndin ərazisində qədim insan məskəni, qədim qəbiristanlıq və bu qəbiristanlıqda daşdan təbii qoç fiqurları aşkar edilib. Nəhəcir qalasında isə 4 min il bundan əvvəl yaşayışı təsdiq edən tarixi abidələr kompleksi var. Orada 50-dən çox yaşayış evi, 2 metrdən yüksək olan müdafiə divarları, atları saxlamaq üçün yer olub".

Rəfael kişinin dedikləri bizləri daha çox həyəcanlandırır, Nəhəcir qalasını bir anlıq belə təsəvvür edərək yola çıxacağımız vaxtı gözləyirik. Qədim tarixə malik bu kəndin muxtar respublikaya gələn insanlar üçün olduqca maraqlı tarixi məkanları var. Elə kənd sakini Əli Tarverdiyev də bunu təsdiqləyir. Uzun illər müəllim kimi fəaliyyət göstərən kənd sakini deyir ki, bura tarixin bir parçası yox, elə tarixin özüdür: "Nəhəcir Azərbaycanın, bəlkə də, ən qədim yaşayış yerlərindəndir. Qalada olan tarixi abidələr bunun əyani sübutudur. Deyərdim ki, qeyri-adi yerdir Nəhəcir dağı, qalası. Burada sakinlərin əsas məşğuliyyəti isə maldarlıqdır. Bəziləri burada arı saxlayırlar, elə mənim kimi".

Vaxt yetişir... Kəndi seyr etmək və tarixi abidəni görmək üçün Nəhəcir qalasına qalxırıq. Dağın ümumi quruluşu elədir ki, uzun yolla gah dərələrin arası ilə yuxarı, gah da ziqzaqvari şəkildə enişə doğru addımlamalıyıq. Çalışdığımız qədər otlaq sahələrinə girmir, yalnız daşların üzəri ilə addımlayırıq. Ətrafa göz yetirərkən – buna ilanların qorxusu da deyə bilərik – bizi çaqqalların səsi qarşılayır, yolboyu balaca yuvalarda inildəyən kəkliklərin səsi gəlsə də, gözə dəymirlər, sanki sakitcə bizi izləyirlər. Şamxal Ələkbərov deyir ki, ilin bu fəslində Nəhəcir dağının gözəlliyi onun qoynunda yurd-yuva salan canlılardır. Və budur, söz bitməmiş qarşımıza 20-dən çox dağ keçisi çıxır. Fotoqrafımız Zülfüqar Qurbanlı sıldırım qayanın üzərində məğrur duran dağ keçisinin fotosunu fotoaparatın yaddaşına həkk edir. "Bu, sürünün erkəyidir, öndə o gedir, təhlükəni sanki sezir və sürünü qoruyur" – Şamxal müəllim sözlərini bitirməmiş, dağ keçiləri sanki rəqs edirmiş kimi o qayadan bu qayaya atılırlar.

Dönüb arxaya baxdıqda möhtəşəm mənzərə bizi valeh edir: kənd sakinləri qoyun sürülərini otlaq sahələrinə aparır, təsərrüfatçılar isə öz həyətyanı sahələrində işlərini davam etdirirlər. Nəhəcirin "küsən bulağı" isə yenə küsülü vəziyyətdə görünür. Qarşıda bizi haçalanan yol "qarşılayır" və bu qayalı yol bizi düz bir əraziyə – Nəhəcir qalasına aparır. Qalanın girişində müdafiə üçün olan divarlar sanki yeni inşa edilib, qalanın tam ortasında isə böyük bir sal daş keşikçi kimi divarlara "söykənib". Qalada olan yarı uçmuş, yarı tikili evlərin quruluşu buranın tarixinin nə qədər qədim olduğunun göstəricisidir. Hər daşında bir tarix yatan qalanın açıq tərəfi Nəhəciri sanki Haçadağla birləşdirir, ona qucaq açır, Araz çayını öz qoynuna çəkir. Başı buludlara söykənən sal qayaların üzərində qanad çalan qartallar Nəhəcirin nə qədər böyük, uca olduğunu sanki hayqırmaq istəyir. Burada olan papağa bənzər qayaların içində yerləşir evlər. Bunu da başa düşmək çətin deyil: həm düşməndən, həm də vəhşi heyvanlardan qorunmaq üçün o dövrdə evlər belə tikilib. Buranın ab-havası, görünüşü və tarix qoxan divarları insanı keçmişə aparır. Diqqəti çəkən digər məqam isə isti havada buranın sərin olmasıdır. Qayalara söykənən yarımtikililəri gəzdikcə soyuq havanı daha çox hiss edirsən.

Ümumiyyətlə, Nəhəcir abidələr kompleksi Nəhəcir dağının ətəyi boyunca uzanır. Tarixi mənbələrə görə, burada aşkara çıxarılmış yerüstü tapıntılara Orta Tunc dövrünə aid boz və çəhrayı rəngli keramika, bu dövrə aid boyalı qablar, o cümlədən orta əsr materialları aiddir. Təbiət hadisələri nəticəsində baş verən aşınmada meydana gələn kəsiklərdə daşdan hörülmüş tikinti qalıqları, yenə də boyalı qablar, əmək alətləri və osteoloji qalıqlar aşkara çıxıb. Nəhəcir qalası bu kompleksin ən maraqlı abidələrindən biridir. Tarixi eradan əvvəl II minilliyə-I minilliyin əvvəllərinə aid edilən bu qala 2001-ci ildə Naxçıvan arxeoloji ekspedisiyası tərəfindən aşkar edilib. Qala ərazisində həmin dövrə aid bazalt daşından hazırlanmış balta, kiçikhəcmli dibəkdaşı, qara, boz və çəhrayı rəngli qab qırıqları tapılıb. Burada, həmçinin Nəhəcir qalası ilə eyni dövrə aid olan dağıdılmış kurqandan eradan əvvəl II minilliyin əvvəllərinə aid monoxrom boyalı gil qablar aşkar edilib.

Əsrlərin möcüzəsi olan bu tarixi abidəni olduğu kimi qoruyub saxlamaq ümidi ilə uzaqlaşırıq qaladan. Yolda yenə dağ keçiləri, buranın daimi "sakinləri" ilə rastlaşırıq. Bir də gəlmək arzusu ilə...

✍ **Ceyhun MƏMMƏDOV**



# Muxtariyyət ərəfəsində Naxçıvanın ermənilərə qarşı mübarizəsi



Vəli BAXŞƏLİYEV
*AMEA-nın müxbir üzvü*

Tarixboyu xarici işğalçılara qarşı mübarizə apararaq öz müstəqilliyini qoruyan Naxçıvan torpağı XX əsrin əvvəllərində də bu missiyanı yerinə yetirmək məcburiyyətində qaldı. Rusiyada 1917-ci il fevral-burjua inqilabından sonra yaranan siyasi vəziyyət nəticəsində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda vəziyyət olduqca çətinləşmişdi. Tarixboyu torpaqlarımıza göz dikən ermənilərin Naxçıvan torpaqlarını ələ keçirmək uğrunda həyata keçirdikləri qətliamlar vəziyyəti daha da mürəkkəbləşdirmişdi. Çar hökumətinin süqutundan sonra yaradılan Xüsusi Zaqafqaziya Komitəsi, daha sonra onu əvəz edən Zaqafqaziya Komissarlığı və Zaqafqaziya Seyminin də fəaliyyəti vəziyyəti sabitləşdirə bilmədi.

Bu dövrdə Naxçıvanda bolşeviklərin də fəaliyyəti genişlənmiş, həmçinin milli komitələr yaranmışdı. Milli komitələrin yerli idarəetmə mexanizminin yaradılması istiqamətində işlər görülürdü. Lakin milli komitələrin yaradılması da erməni özbaşınalıqlarının qarşısını ala bilmədi. Rusların bölgədən gedişindən sonra qarşıdurmalar daha da artmışdı. Zəngəzurda erməni silahlı qüvvələrinin fəaliyyəti Naxçıvanla Azərbaycanın əlaqələrini, demək olar ki, kəsmişdi. Bu dövrdə erməni qətliamlarına qarşı mübarizə aparan və Naxçıvan əhalisinə yardım edən yeganə mütəşəkkil qüvvə Türkiyə idi. Naxçıvan əhalisinin də güvəndiyi yer Türkiyə idi.

Türk ordusunun Qafqaza yaxınlaşması Naxçıvan və İrəvan müsəlmanları arasında ümidləri artırmışdı. Türk qoşunlarının Maku, Xoy və Səlmasdakı qələbəsindən sonra Cəfərqulu xan Naxçıvanski Naxçıvanın türklər tərəfindən nəzarətə alınması ilə bağlı danışıqlara başlamışdı. Türk komandanlığına müraciətdə Naxçıvan xanlarının Zaqafqaziya Seymi və Rusiyanı tanımadıqları bildirilirdi. Onlar türk ordusunun Naxçıvana göndərilməsini tələb edirdi. 1918-ci ilin mayında Xəlil bəy və onun yoldaşlarından ibarət bir qrup zabit Naxçıvana daxil oldu. 1918-ci ildə Ermənilərin törətdikləri qətliamlardan bezən türk-müsəlmanlardan ibarət Naxçıvan əhalisi Türkiyəyə birləşmək istədiklərini bildirmişdilər. 4 iyun 1918-ci ildə Türkiyə ilə Azərbaycan, Gürcüstan və Ermənistan arasında bağlanan Batumi müqaviləsinə görə, Ordubad istisna olmaqla Naxçıvan Türkiyəyə verilmişdi. Amma buna baxmayaraq, ermənilər yenidən Zəngəzur, Naxçıvan, Qazax və Borçalının Ermənistana aid olması ilə bağlı təbliğat kampaniyasını genişləndirdilər. Lakin Türk ordusunun Naxçıvanda olması erməni millətçilərinin əl-qolunu bağlamışdı. Naxçıvan, Şahtaxtı və Şərurda müsəlman qüvvələrinin üstünlük təşkil etməsinə baxmayaraq, bir kənddən o biri kəndə getmək mümkün deyildi. Çünki müsəlmanlar arasında da hərc-mərclik var idi.

Bu zaman Batumi müqaviləsini tanımaqdan imtina edən Andranik Şimali İrana gedərək ingilislərlə birləşmək və fəaliyyətini davam etdirmək istəyirdi. Andranik və Yapqun adlı quldurların Naxçıvana yaxınlaşması vəziyyəti yenidən gərginləşdirdi. Andranik Şahtaxtıdan keçərək İrana getmək üçün Xəlil bəydən icazə istəsə də, bunun müsəlman əhali üçün fəlakətlə nəticələnəcəyini başa düşən Xəlil bəy razılıq vermədi. Buna görə Andranik 18-19 iyunda Qarabağ-Qızılbulaq-Cəhri yolu ilə Naxçıvana gəldi. Onlar Culfadan keçərək Xoy yaxınlığında yerləşdilər, lakin türk ordusu ilə döyüşdə məğlub oldular. Xoy azad edildi. Bununla da Andranik ordusunun on minə qədər silahlısı Culfadan şimalda qaldı və bu Culfa, Naxçıvan və Ordubad əhalisi üçün çətinlik yaratdı. Andranikin quldur dəstələri Yaycıda qırğın törədərək dörd mindən artıq insanı qətlə yetirdilər. Lakin 17 iyulda nehrəmlilərin qüvvələri tərəfindən dağıdılan Andranikin dəstələri geri çəkilməyə məcbur oldular. 20 iyulda Naxçıvana hücum edən Andranik gözləmədiyi müqavimət ilə rastlaşdı. XI Qafqaz diviziyasının vaxtında köməyə gəlməsi ilə Andranik məğlub olaraq Gorusa və Sisyana qaçdı. Batumi müqaviləsinə görə Naxçıvan Türkiyəyə verilsə də, ermənilər bölgədən çıxmaq istəmirdi. Bu isə hərbi qüvvənin tətbiqini zəruri edirdi. Türk ordusunun müvəffəqiyyətli yürüşləri yenidən ermənilərin məğlubiyyəti və onların Naxçıvandan çıxarılması ilə nəticələndi. Naxçıvan türk orduları tərəfindən tutulduqdan sonra erməni milli komitələri ləğv edildi və Osmanlı idarə sistemi yaradıldı. Naxçıvan nəzarətə alındıqdan sonra türk ordusu Ordubada üz tutdu və tezliklə Ordubadı nəzarət altına aldı.

30 oktyabr 1918-ci il Mudros müqaviləsinə görə türk ordusu Cənubi Qafqazı tərk etmək məcburiyyətində idi. Buna görə də türk ordusu Naxçıvan, Şərur, Qəmərli, Uluxanlı, Sərdarabad və Vedi əhalisinin özünü müdafiə etməsi üçün hərbi təşkilatlar və özünüidarə orqanlarının yaradılmasına köməklik edirdi. Bu istiqamətdə görülən ən mühüm işlərdən biri 18 noyabr 1918-ci ildə Qəmərlidə Araz-Türk hökumətinin yaradılmasının elan edilməsi oldu.

Türk ordusu bölgədən getdikdən sonra ermənilər yenidən fəallaşaraq Zəngəzur ilə Naxçıvan arasındakı türk-müsəlman kəndlərini qarət eməyə başladılar. Təkcə Zəngəzurda 133 kənd boşaldılmış, mindən artıq müsəlman şəhid olmuşdu. Ermənilər Qəmərli və Uluxanlını ələ keçirərək Naxçıvana doğru irəliləməyə başladılar. Lakin Vedidə gözləmədikləri bir müqavimətlə qarşılaşdılar. Abbasqulu bəy Şadlınskinin dəstələri onlara keçid vermədi. Bir müddət sonra ermənilər Dəhnə döyüşündə qələbə çalaraq Şərur rayonunun kəndlərinə daxil oldular. Onların hücumlarının qarşısı Kalbalı xan və Məşədi Əli Əsgər ağanın rəhbərlik etdiyi yerli qüvvələr tərəfindən dayandırıldı. Dəmirçi, Maxta və Dəhnəni azad edən milli qüvvələr erməniləri Arazdəyənə qədər qovdular.

20 yanvar 1919-cu ildə ingilis heyəti ilə Naxçıvandakı Milli Şura üzvləri müştərək bir yığıncaq keçirdilər. Qərara görə Culfadan Sədərəyə qədər Naxçıvan türklərin nəzarətinə verilirdi, Arazdəyən isə sərhəd olurdu, ermənilərin sərhəddi isə İrəvan Yengicəsindən başlayırdı. İngilislərin tələbi ilə erməni silahlıları Qəmərli çayının arxasına doğru geri çəkildilər. Kapitan Launtenin rəhbərliyi ilə Hərbi Qubernatorluq yaradıldıqdan sonra Sədərəkdən Ordubada qədər ərazini əhatə edən Naxçıvan hökuməti İngilis idarəçiliyinə tabe olmalıydı. Launten mühüm məsələlərin həllində Naxçıvan hökuməti ilə razılaşırdı. Naxçıvanlılar Böyük Vedi ilə daim təmasda olmaqla Aralığı möhkəmləndirirdilər. Lakin Tomsonun İrəvana gəlməsindən sonra ingilislərin siyasəti tamamilə dəyişdi. Tomson İrəvan-Culfa dəmir yolu boyunca İrəvanın cənubunda yaşayan müsəlmanların başqa bölgələrə köçürülməsi, Naxçıvana erməni mühacirlərinin yerləşdirilməsinin vacibliyini qəbul etdi. Onların təklifinə görə Qarabağ və Zəngəzur Azərbaycanın, Qars, Sürməli, Şərur və Naxçıvan Ermənistanın ixtiyarında olmalı idi. Lakin onlar Ermənistana veriləcək bölgələrin reallaşmasına daha çox cəhd edirdilər. Bu planı həyata keçirmək üçün Dronun rəhbərlik etdiyi erməni qüvvələrindən istifadə olunurdu. Bu zaman Azərbaycanın İrəvandakı nümayəndəsi Xan Təkinski Naxçıvanın ilhaq edilməsinin qarşısını almağa çalışırdı. Təkinski Azərbaycan hökuməti adından Ermənistana Nota verdi. 28 aprel 1919-cu ildə Naxçıvan qüvvələri məscidə toplaşaraq Naxçıvanın Azərbaycan Xalq Cümhuriyyətinə birləşdirilməsini qərara aldılar. 19 may 1919-cu ildə ingilislər Naxçıvanda erməni idarəçiliyi yaratmaq istədilər, lakin milli qüvvələr buna mane oldu. Ermənilərə qarşı mübarizə aparan xalq Türkiyəyə müraciət etdi. Araz vadisində erməni qətliamları Kazım Qarabəkir paşanı hərəkətə keçirdi. Lakin ermənilərin hücumları davam edirdi. Naxçıvan əhalisi Ordubad, Şərur, Yaycı, Bulqan, Vedibasarda özünümüdafiə dəstələri yaradaraq müdafiə olunurdular. Azərbaycan hökuməti əhalinin silahlanması üçün xeyli vəsait ayırmışdı. Bu işdə Xan Təkinskinin də böyük rolu olmuşdu.

Vedidən başlanan xalq üsyanları ermənilərin məğlubiyyəti və onların Naxçıvandakı idarəçiliyinin iflası ilə nəticələndi. 1919-cu ilin iyun ayında Naxçıvan və Şərur-Dərələyəz qəzalarında Amerika general-qubernatorluğunun yaradılması haqqında razılıq əldə edilmişdi. Lakin bu da Naxçıvanda baş verən problemləri həll etmədi. Türkiyədə Türkiyə Böyük Millət Məclisinin fəaliyyətə başlamasından sonra Türkiyənin Naxçıvana marağı artdı. Naxçıvan-Zəngəzur yolu Türkiyəni sovet Rusiyası ilə bağlayan yeganə yol idi. Naxçıvan Kazım Qarabəkir paşanın dili ilə “Şərq qapısı”, Mustafa Kamal Paşanın dili ilə “Türk qapısı” adlandırılmışdı.

1920-ci ilin yazında Oltudan Naxçıvana və Zəngəzuradək böyük bir ərazidə ermənilərin hücumları başladı. Onların məqsədi Sovet Rusiyası ilə Türkiyənin əlaqələrini kəsmək idi. 1920-ci ilin iyulunda Böyük Vedi, Dəhnə boğazı, Dəvəli, Şərur və Şahtaxtı ermənilər tərəfindən işğal olundu. Bu dövrdə Naxçıvanı Ermənistana vermək istəyən Rusiyanın məsələyə münasibətinin dəyişməsi Türk ordusunun yolunu açdı. 20 sentyabr 1920-ci ildə TBMM Şərq Cəbhəsi komandanlığına Ermənistana hücum üçün icazə verdi. 28 sentyabr 1920-ci ildə türk ordusu Ermənistana qarşı hücuma başladı və erməniləri məğlubiyyətə uğratdı. Naxçıvanda ermənilərə qarşı hücum 7 noyabrda başladı və ermənilərin darmadağın edilməsi ilə nəticələndi. 3 dekabr 1920-ci ildə bağlanan Gümrü müqaviləsinə görə Naxçıvan Türkiyənin himayəsinə verildi.

Naxçıvanın sonrakı taleyi Rusiya ilə Türkiyə arasında 16 mart 1921-ci ildə bağlanan Moskva və 13 oktyabr 1921-ci ildə Rusiya, Azərbaycan, Gürcüstan və Ermənistanla Türkiyə arasında bağlanan Qars müqaviləsi ilə həll edildi. Naxçıvan əhalisinin qəhrəman mübarizəsi nəticəsində ermənilərin Naxçıvanı işğal etmək cəhdləri baş tutmadı. Ermənipərəst siyasətçilərin Naxçıvanı Azərbaycandan ayırmaq cəhdləri baş tutmadı. Naxçıvan 1924-cü ildə muxtar dövlət kimi Azərbaycanın tərkibinə qatıldı.



# Bu gölün kənarına niyə alma atarlarmış?

İnsanın ruhunu oxşayan füsunkar təbiəti, başıqarlı dağları, buz bulaqları, çayları, zəngin fauna və florası ilə seçilir gözəl mənzərələr məskəni Ordubad… Elə ki Yay fəsli gəldi, yaşıllıqlar qoynunda dincəlmək, istirahətini daha mənalı etmək istəyən hər kəs üz tutur bu qədim diyarımıza. Memarlıq və tarixi abidələri, qədim küçələri, məscidləri, hamamları, qocaman çinarları, dadlı mətbəx nümunələri buraya ayaq basan hər kəsi ilk baxışda özünə cəlb edir. Pəzməri, Qaplançay şəlalələri, təbiət möcüzəsi, ilin dörd fəslinin birləşdiyi Göygöl isə isti havalarda ürəyə sərinlik gətirir.

Sirli-sehrli Göygölü görmək üçün bir qədər yol qət etməlisən. Ancaq gördüyün mənzərələrdən sonra deyirsən: “Yaxşı ki, gəldim, bu təbiət gözəlini gördüm. Zəngəzur silsiləsi, Gəmiqaya dağı, Ağdağın ətəklərinə bir anlıq səyahət etmək imkanı qazandım, buradakı fərqli gözəllikdə Nuh müqəddəsliyinin bir daha şahidi oldum”.

Gölün yerləşdiyi Nürgüt kəndi bir çox yaşayış məntəqəsi kimi müasirliyə qovuşub. Bu kəndi fərqləndirən də ondan bir qədər aralıda yerləşən səfalı Göygöldür. Yayda dağ zirvələrindəki əriyən qar göl suyunun mənbəyini təşkil edir. Buranı “dörd fəsil” gölü də adlandırırlar. Gölün bir tərəfində qar olanda digər tərəfində yaz çiçəkləri açır. Göl böyük olmasa da, gözəl təbiət abidəsi kimi qonaqları öz sehrinə salır. Gölə yaxınlaşdıqca Saqqarsu çayının zümzüməsi, quşların cəh-cəhi insanı bihuş edir. Fəsillərin birlik ocağı olan Göygöl məğrur dağlar qoynunda ecazkar sənət əsərini xatırladır sanki. Zirvəsi daim qarla örtülü olan dağların cazibəsi, gölün şəffaflığı ilə seçilən sərin suyu, yamyaşıl otların içərisindən baş qaldıran al-əlvan çiçəklər, bir sözlə, gözəl mənzərələrin təsiri altında günün xoş keçir.

Göl Zəngəzur dağ silsiləsinin cənub yamacında, dəniz səviyyəsindən 3065 metr yüksəklikdə yerləşir. Şirinsulu, axarlı olan, “Kitabi-Dədə Qorqud”da adıçəkilən bu göl Azərbaycanın, eləcə də muxtar respublika təbiətinin nadir incisi kimi Kiçik Qafqazın ən hündür dağ gölü sayılır. Gilançayın sol qolu olan Saqqarsu öz başlanğıcını Göygöldən götürür. Göldən bir az cənubda Qazangöldağ, cənub-şərqdə isə Zəngəzur dağ silsiləsinin dağ yamacında Göygölə çox bənzəyən Qazangöl yerləşir. Buzlaq gölü olan Qazangölün mənsəbi Oxçuçaydır. Bu iki dağ gölünü bir-birindən Qazangöl aşırımı ayırır. Göygölə yaz iyul-avqust aylarında gəlir və bir qədər sonra dörd fəsil bir arada yaşanır. Sıldırım qayalardakı qar qışı, bir tərəfdə baş qaldıran otlar və çiçəklər yazı, güney tərəf yayı, digər tərəfdə otlar isə payızı xatırladır.

Yay fəslində Göygölə səfər edənlərin sayı çox olur. Deyilənlərə görə, insanlar ürəklərində tutduqları niyyətlərinin qəbul olunması üçün gölün kənarına bir alma atarmışlar. Əgər alma həmin insanın səmtinə doğru yenidən qayıdardısa, o insanın ürəyindəki arzular hasil olarmış... Göygölün sirli-sehrli olduğunu demişdik axı…

✍ Güntac ŞAHMƏMMƏDLİ





# 100 ilin qəhrəmanları

*"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Şərur rayonunun Oğlanqala kəndindən olan şəhidimiz Kamal Əbilovun anası Kamalə Əbilovanın, Şahbuz rayonunun Yuxarı Qışlaq kəndindən olan şəhidimiz Qəşəm Səfərovun anası Sara Səfərovanın və Şərur rayonunun Oğuzkəndindən olan şəhidimiz Mərhəmət Əhmədovun anası Xatirə Əhmədovanın övladları haqqında xatirələri yer alıb.*

## Kamal Vidadi oğlu Əbilov

*(17.05.1996-30.09.2020)*

## Canını Vətənə qurban verdi





Mən övladlarımı min bir əziyyətlə böyütmüşəm. Amma bilmirdim ki, o övladlarımdan biri məhz mələkdi. Elə o mələyi Vətənə qurban vermişəm. Əgər lazım gələrsə, o birini də Vətənə qurban verməyə hazıram. Mənim balam evdən yox, eldən gedib.

Düzdür, bala dağı çox ağırdır. Allah heç kəsə belə dağ nəsib etməsin. Bu gün ruhu başımız üstdə gəzən Kamal iki dəfə məni sevindirib. Bir 1996-cı ildə, dünyaya gəldiyi vaxt. Bir də ki, 2020-ci ildə Kamalım igid, qəhrəman kimi şəhid olaraq evinə gətirdikləri zaman. Bəzən oturub fikirləşirəm ki, Kamalın hansı hərəkəti pis idi. Bəlkə, onunla təskinlik tapam. Amma nə qədər fikirləşirəm, ağlıma heç nə gəlmir. Ancaq xoş xatirələri...

Balaca vaxtından deyirdi ki, ana, mən səni yaşadacağam. Səni atamdan çox istəyirəm. Mən sənsiz nəfəs ala bilmərəm. Mənim bir günüm sənsiz olmasın. Amma belə deməsinə baxmayaraq, Vətəni məndən üstün tutdu. Canını Vətənə qurban verdi.



Kamal dərslərini də çox yaxşı oxuyurdu. VIII sinfi bitirib hərbi liseyə daxil oldu. Sonra təhsilini hərbi akademiyada davam etdirdi. Üç il idi ki, işləyirdi. Bir gün dedim ki, Kamal, gəl səni evləndirim. Cavab verdi ki, ana, qoy dağdan enim, gəlib evlənəcəyəm. Həmin vaxt Murovdağda xidmət edirdi.

Kamal 2019-cu ildə çox ağır yol qəzası keçirdi. Heç kəs inanmırdı ki, oğlum oradan sağ qurtarıb. Allahın nəsibinə bax. O qəzadan sağ qurtaran Kamal 2020-ci ildə düşmən güllüsi ilə həyatını itirdi.

Sonuncu dəfə 29 sentyabrda danışdıq. Müharibədən heç nə demədi. Dedi ki, o haqda danışmayın. Sevdiyi qız var idi. Oğlum söz verdi ki, gələn kimi ailə quracaq. Həmin gecə atası yuxu görmüşdü. Görüb ki, Kamal gəlib. Ona deyib ki, ata, bax general oğlun gəlib. Səhərisi gün zəng vurduq. Kamala zəng çatmadı. Yuxusunda general olduğunu deyən oğul ata-anasını bu dünyada çarəsiz qoydu. Atası da oğulsuz cəmi bir il bir ay yaşadı. Oğlunun dördüncü medalını alanda dünyasını dəyişdi.

## Əhmədov Mərhəmət Adil oğlu

*(14.05.1991-25.10.2020)*

## Vətəni müdafiə etmək böyük fədakarlıqdır





Mərhəmətin haqqında o qədər danışmalı sözlər var ki... O, uşaqlıqdan qoçaq, qorxmaz, işgüzar idi. Yadımdadır ki, 3-4 yaşı olardı. Həyətdən xiyar qırıb yedik. Dedi ki, yenə istəyirəm. Dedim ki, oğul, gecədir, səhər yığarıq. Dedi, özüm yığacağam. O balaca uşaq qorxu bilmədən əkin sahəsinə getdi. Xiyarı kolu ilə çıxarıb evə gətirdi. Balaca olmasına baxmayaraq, qorxu bilmirdi.

Küçədən keçən kimi bilirdim ki, Mərhəmət gəlir. Qonşular soruşurdular ki, Mərhəmətin gəlməyini nədən bilirsən? Deyirdim, Mərhəmətin ətri gəlir. İşdən gəlirdi, görürdü ki, yorulmuşam. Tez deyirdi ki, bu gün yorulmusan. Niyə bu qədər işləyirsən, az işlə. Deyirdi ki, dur oğluna bir çay qoy, yorğunluğun çıxsın. Oğlun da durub sənə kömək etsin. Oğlum şokoladlı, mürəbbəli çaya "pırpırlı" çay deyərdi.



Hərbçi olmaq Mərhəmətin ən böyük arzusu idi. Orta məktəb illərindən bu arzu ilə yaşayırdı. Neçə illər can atdı, amma hərbi məktəbə daxil ola bilmədi. Dizində bir az problemi var idi. Ona görə işi alınmırdı. Üç il müalicə olundu. Sonra Allah qismət etdi, Xüsusi Təyinatlı Qüvvələrdə işə başladı. Bu da bir qismət idi. Üç ay kursda oldu. Həmin müddətdə çox arıqladı. Ancaq özünü sındırmırdı.

Müharibəyə getməyini bilmədim. Sonuncu dəfə gələndə evə girməyə vaxt olmadı. Həyətdə bizimlə görüşüb, ən çox sevdiyi kompotdan içdi. Elə qapının ağzında: "Gecən xeyrə qalsın", – deyib getdi. Bu, balamla sonuncu görüşümüz oldu.

Sonuncu dəfə danışanda da çox hövsələsiz idi. Deyirdi ki, səbrim çatmır. Şəhidlərimiz çoxdur. Ancaq qalib gələcəyik. Buna inan. Səhəri gün balamın şəhidlik xəbərini aldıq. Nə deyim? Allah bütün şəhidlərimizin ruhunu şad etsin! Bu günümüz üçün onlara borcluyuq.

## Qəşəm Taməddin oğlu Səfərov

*(01.11.1997-01.11.2020)*

## Qəhrəmanlıq örnəyi olan şəhidimiz





Qəşəm çox mərd uşaq olub. Hər kəsə qarşı mehriban idi. Kənddə balacadan böyüyə kimi hamı ona hörmət edirdi. Həm də qoçaq idi. Dərslərini oxuyar, sonra atasına kömək edərdi.

Müəllimləri dərslərini yaxşı oxumasından razılıqlarını bildirirdilər. VIII sinfi bitirib hərbi liseyə imtahan verdi. İmtahanı uğurla başa vurdu. Sevincinin həddi-hüdudu yox idi.

Hərbi məktəbi bitirdikdən sonra hərbi akademiyaya da yüksək balla daxil oldu. Üç il orada təhsil aldı. Gözləri zəif olduğu üçün akademiyanı başa vura bilmədi. Sonra həqiqi hərbi xidmətə yollandı. Hərbi xidmətdən sonra yenidən hərbçi kimi işləməyə başladı.

Elə o vaxt üçaylıq kursa yazıldı. Həmin kursun bir ayında iştirak etdi. Həmin müddətdə evə gəldi. Dedim, oğul, kurs nə tez qurtardı? Dedi ki, ana, biz Vayxırda kurs keçəcəyik, dedilər get ananı gör. Mən nə biləydim ki, balam vidalaşmaq üçün gəlib. Kaş onda...

Qəşəm idmana da çox maraqlı idi. Hər dəfə yarışlara gedəndə mütləq medalla geri dönərdi. Bir dəfə yenə yarış olacaqdı. Hər yarışdan əvvəl Qəşəm çox ciddi hazırlaşardı. Bu yarışa da hazırlaşmadı. Dedi ki, görüm bu dəfə necə olacaq? Dedim ki, oğul, ürəyim çox rahatdır. Mütləq qalib gələcəksən. Günorta qonşu gəldi ki, muştuluğumu ver. Sənə bir söz deyəcəyəm. Dedim ki, bilirəm. Bilirəm ki, Qəşəm yenə Naxçıvan birincisi olub. Soruşdu ki, nə bilirsən? Cavab verdim ki, mən bunu ürəkdən hiss edirəm. Həqiqətən də, Qəşəm Naxçıvan birincisi olmuşdu.



Sonuncu dəfə oktyabrın 27-si Qəşəmlə danışdım. Güllə səsləri gəlirdi. Dedim, oğul, bu nə güllə səsidi? Cavab verdi ki, Sədərəkdə təlim keçirik, narahat olma, Naxçıvandayam. Amma 29 oktyabrda balamın şəhid xəbərini aldım. İndi gəl bu dərdə döz. O qədər çətin bir dərddir ki, nə ifadəsi var, nə də çarəsi. Nə edə bilərik, Vətən sağ olsun!



# Bütün daşlar öz yerinə oturdu

Vətən müharibəsində sinəsini düşmənə sipər edən oğullar qələbə qazanaraq təkcə torpağımızı yox, mədəniyyətimizi, milli adət-ənənələrimizi, namus və ləyaqətimizi, dini ocaqlarımızı da düşməndən azad etdilər. Cəbrayılda, Qubadlıda, Ağdamda düşmənin tövləyə çevirdiyi məscidlərimiz düşməndən azad edilərək öz sahibinə qaytarıldı. Ali Baş Komandan düşmənin xarabaya çevirdiyi məscidlərə ayaqyalın girib, onun torpağını ovuclayıb başı üstünə qaldırdı. Və düşmənə 44 günlük müharibə dövründə dəstək verən dövlətlərə tarixi dərs keçdi. Oğullarımız Şuşaya daxil olarkən şanlı bayrağı ilk olaraq Gövhər Ağa məscidinə sancıb, minarədən azan oxudu. Ağdamın xarabaya dönmüş Cümə məscidinin qarşısından sülh mesajları verdilər. Torpağımız düşməndən azad edildikcə ilk olaraq dini ocaqlar düşmənin murdar ayaqlarının izindən təmizləndi. Qan ilə sulanan torpağın bütün dini ocaqları bərpa edildi. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva 2020-ci il dekabrın 8-də fondun işğaldan azad edilən ərazilərdəki dini-mədəni abidələrin, məscidlərin bərpası üzrə layihəyə başladığını bəyan etdi. Bununla da Heydər Əliyev Fondu bərpa işlərində dövlət tərəfindən həyata keçirilən layihələrə vətəndaş cəmiyyətinin üzvü kimi öz dəstəyini göstərir. Fondun prezidenti Mehriban xanım Əliyevanın göstərişi ilə layihəyə yerli mütəxəssislərlə yanaşı, xarici ekspertlər də dəvət olunub. Bərpa prosesinə Avstriya, Böyük Britaniya, Bolqarıstan, İtaliya, Latviya, Rusiya, Türkiyə, Gürcüstan və digər ölkələrdən mütəxəssislər cəlb edilib.

Heydər Əliyev Fondunun işğaldan azad olunan ərazilər üzrə layihəsinin icrası üçün xüsusi işçi qrupu yaradılıb və bərpa olunacaq abidələrin öyrənilməsi məqsədilə ilkin qiymətləndirmə aparıldıqdan sonra bərpa işləri görüldü. Bərpa işləri dini mənsubiyyətindən asılı olmayaraq, bütün abidələri əhatə edir.



✍ Ramiyə ƏKBƏROVA

Bu gün Şuşaya, Ağdama ayaq basanlar oradakı məscidlərdə Tanrıya şükür edir, şəhidlərimizin ruhuna dualar oxuyurlar. Hər dəfə bu süjetləri izləyəndə yadıma Ağdam Cümə məscidinə aid olan daş parçasının işğal dövründə – 9 may 2000-ci ildə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevə ATƏT-in Minsk qrupunun üzvləri tərəfindən verilməsi düşür. Dahi rəhbər həmin daşı müqəddəs bir daş kimi qəbul edəndə üzündəki vaxt gələcək bu daş öz yerinə oturacaq ifadəsi bu gün də yaddaşlardadır.

Bəli, həmin vaxt gəldi. 44 gündə Azərbaycan oğulları xalqının başını uca etdi. Onlar Ulu Öndərin vəsiyyətini yerinə yetirib torpağımızı azadlığa qovuşdurdu. 2000-ci ildə dahi rəhbərə hədiyyə edilən həmin daş parçası illər sonra düşmənin qanlı caynağından azad olan, bərpa edilən Ağdam Cümə məscidinə qaytarıldı. Həmin gün illərdir, öz əzizlərinin isti nəfəsinə həsrət qalmış qədim Cümə məscidinin başı üzərində pərvaz edən şəhid ruhları ilə bərabər xalqının azadlığını öz canından əziz bilən dahi rəhbərin, Vətənin oğlunun da, el qızı Natəvanın da ruhu şad oldu. Dünya bir daha şahid oldu ki, bu xalq öz torpağının sahibidir və elə olaraq da qalacaq. Vətənimizin hər bir daşı öz yerinə oturacaq. Cümə məscidində olduğu kimi.

# Tülkünün dostu çaqqal olar *və ya on min kilometr uzaqlıqdan bəyan edilən siyasi əxlaqsızlıq*

Gərək başlıqdakı sərt ritorikaya görə hörmətli oxucu məni bağışlasın. Amma okeanın o tayından durub Cənubi Qafqazdakı siyasi vəziyyətə burnunu soxan Kanada və onun xarici işlər naziri xanım Melani Colinin son günlər Azərbaycanla bağlı verdiyi açıqlamalara başqa ad tapa bilmədim. Rəsmi Ottavanın xarici siyasətinin başında duran bu şəxsin ölkəmizlə bağlı sərsəmləmələrinə diqqət yetirək: "Biz Azərbaycana təzyiq göstərməkdə davam edəcəyik. Bu təzyiqin məqsədi isə ondan ibarətdir ki, Azərbaycan Ermənistanla vicdanla işləsin, münaqişəni danışıqlar və sülh yolu ilə siyasi müstəvidə həll etsin, özbaşına saxlanılan erməni məhbusları azadlığa buraxsın, Ermənistanın ərazi bütövlüyünə hörmətlə yanaşsın və güc və hədələyici ritorikadan istifadədən çəkinsin".



Muxtar RZAZADƏ

Xanımlar və cənablar, yəqin, bu kiçik açıqlamadan sonra yazının sərlövhəsində nə qədər haqlı olduğuma siz də inandınız. Hər zaman ermənipərəst mövqeyi ilə seçilən bu xanım və onun mənsub olduğu dövlətə bir daha xatırlatma etməyi lazım bilirik ki, Azərbaycan Cənubi Qafqazın lideridir və onunla heç kim siyasi təhdid dili ilə danışa bilməz; təzyiq göstərməyi isə ağlınızdan belə keçirməyin! 30 il qapı-qapı gəzib haqqımızı siyasi dairələrdə, beynəlxalq güclərin tribunalarında axtaran zaman siz harada gizlənmişdiniz, niyə səsiniz çıxmırdı? Bəlkə, ən böyük qarın ağrınız Qarabağı işğaldan azad etməyimiz, separatçı tör-töküntünü Xankəndidən əbədi dəf etməyimiz və siyasi oyunlarınıza son verməyimizdir.

Su sizi aparırsa, buna sel deməyi bacarın, xanım Coli! Artıq münaqişəni Azərbaycan Ordusu döyüş meydanında öz xeyrinə həll edib. Bu regionda münaqişə deyə bir anlayış qalmayıb. Bakıdakı təcridxanalarda isə özbaşına saxlanılan erməni yoxdur, sadəcə, cinayət törətmiş, terrora, minlərlə günahsız azərbaycanlının qanına əli bulaşmış, sərhədlərimizi qeyri-qanuni keçmiş, uzun illər qarayara kimi Xankəndiyə soxulub özünə saxta dövlət yaratmaq istəyən quldur dəstənin üzvləri var və bu gün onlar Azərbaycan qanunları ilə mühakimə olunurlar. O ki qaldı Ermənistanın ərazi bütövlüyünün tanınması məsələsinə, siz gərək bunu hamıdan yaxşı biləsiniz ki, biz 4 ildir, qarşı tərəfə sülh əlimizi uzadırıq, sərhədlərin qarşılıqlı olaraq tanınmasını, birgə yaşayış təklif edirik. Yox, əgər bunlardan məlumatsız şəkildə çıxıb ekran qarşısında açıqlama verirsinizsə, nə haqla G-7 qrupunda təmsil olunan Kanada kimi bir ölkənin xarici siyasətinə liderlik edirsiniz?

Kanada ilə Ermənistanın münasibətləri, xüsusilə Nikol Paşinyanın iqtidara keçməsindən sonra daha da istiləşib. Hələ 44 günlük müharibə dönəmində rəsmi Ottava Azərbaycanın işğalçı Ermənistan ordusuna qarşı "Bayraktar TB2" pilotsuz uçuş aparatlarından (PUA) istifadə etməsinə görə 2020-ci ilin oktyabrında Türkiyəyə müdafiə sənayesi məhsullarının ixracına embarqo tətbiq etmişdi. 2023-cü ilin oktyabr ayında isə bu dövlətin İrəvanda səfirliyi açıldı və açılış mərasimində yazımızın "xanım qəhrəman"ı yenə də Bakını hədəf alan açıqlamaları ilə gündəmə gəlmişdi. Kanada həm də ermənilərin kompakt yaşadığı, diasporun kök saldığı ölkələrdən biridir. 2011-ci ilin rəsmi statistikasına görə, Kanadada 55 min 740 nəfər erməni yaşayırdı. Digər qiymətləndirməyə görə isə Kanadadakı ermənilərin sayı 100 min nəfərə yaxındır. Mahiyyət dəyişməz olaraq qalır. Kanada erməniperəst mövqeyindən əl çəkmək istəmir. Yaxşı olar ki, Cənubi Qafqazdan az qala on min kilometr uzaqlıqda yerləşən bir dövlətin rəsmisi Azərbaycana ağıl vermək əvəzinə keçmişinə diqqət yetirsin.

Xanım Coli, bizdə yaxşı bir el məsəli var: Tülkünün dostu çaqqal olar. Təfəkkürünüz də, düşüncəniz də, insanlığınız da, dövlətçilik keçmişiniz də elə bir-birinizə babdır. Sizdən fərqli olaraq biz yerli aborigen xalqlara divan tutub özümüzə dövlət qurmamışıq, indi təəssübünü çəkdiyiniz ermənilər kimi uşaq qatili olanlar da sizsiniz. Qoy sərsəm açıqlamalarınız sizin olsun, biz isə Qarabağı azadlığa qovuşdurmaqla sizin kimi erməniperəst dairələrin kefinə soğan doğramaq, hay birliyinizə "dəmir yumruq" endirən, MÜZƏFFƏR LİDERlə, bütöv AZƏRBAYCANla qürur duyaq!



# Qızıla bərabər gümüş medal

Fransanın paytaxtı Parisdə keçirilən Yay Olimpiya Oyunlarında Azərbaycanı təmsil edən taekvondoçumuz Qaşım Maqomedov bütün rəqiblərini məğlub edərək yarımfinala vəsiqə qazanmışdı. Yarımfinalda isə Qaşım Maqomedov oyunun birinci yarısında 9 xal, ikinci yarısında isə 11 xal əldə edərək italiyalı rəqibi Vito Dellakvilanı məğlub edərək finala yüksəlmişdi.

Oyun həyəcanla davam edirdi, azərbaycanlı taekvondoçunun zərbələri olduqca fəal idi. Qaşım Maqomedov oyun zamanı sanki rəqibinin bütün hərəkətlərini əvvəlcədən bilirmiş kimi qarşılıq verirdi. O hər xalı xeyrinə yazdırdıqca bütün baxışları öz üzərinə çəkərək oyunu izləyənlərin gözünü qırpmağa macal vermirdi.

Final mərhələsində Qaşım Maqomedovun rəqibi Cənubi Koreyanı təmsil edən taekvondoçu Park Taejoon oldu. Final mərhələsinin başlanğıcında Qaşım Maqomedovun gözlərindən sevinc hissi açıq-aydın duyulurdu. Sanki bu hiss ona Azərbaycan cüdoçuları Hidayət Heydərov və Zelim Kostsoyevdən sonra 3-cü qızıl medalı Vətənə gətir deyirdi.

Taekvondo idman növü ilə yaxından maraqlananlar bilməmiş olmazlar ki, taekvondo Koreyada meydana çıxaraq inkişaf etdirilib. Sanki idmançımız tək Park Taejoonla deyil, taekvondonun özü ilə mübarizə aparır. Təmsilçimiz əminliklə mübarizə aparmaqda inadla davam edir... Ta o ana qədər ki, ayağından zədə alır. Bu zədə ona ayaqüstündə durmağa imkan vermirdi. Həkimlərin ilkin tibbi yardımı onun oyuna davam edə bilməyəcəyini açıqca göstərirdi. Oyun dayandırıldı. Rəqib də onun ciddi vəziyyətdə olduğunu başa düşürdü. Həkimlərin baxışları da Qaşım Maqomedovun oyunu dayandırmasını söyləyirdi. Təmsilçimiz bilirdi ki, oyunu dayandırsa, gümüş medalın sahibi olacaq. Lakin o, mübarizədən əl çəkməyərək Vətənini sona qədər təmsil etməyi layiqincə bacardı.

Zədəsi get-gedə böyüyürdü. Koreyalı rəqibi artıq onun zəif nöqtəsini tapmışdı. Qaşımın üzərinə gedərək onu yarış zonasından kənara çıxarmaq və xal əldə etmək istəyirdi. Və bunu bacarırdı. Ayağındakı zədəyə görə hər zərbəbaşı hakim oyunu dayandırır və Qaşım Maqomedova nə isə olmasından qorxurdu. Axı bu idmançımızın karyerasının sonu ola bilərdi.

Qaşım Maqomedovun baş məşqçisinin nigaran baxışları, idmançımızın aldığı zədə səbəbindən alnından axan tər... Oyunun ikinci turundan, təxminən, 40 saniyə keçmişdi, bitməsinə isə, təxminən, 1 dəqiqə qalırdı. Qaşım Maqomedov rəqibinə qarşı bir hərəkət yoxlamaq istəyir və bu hərəkət boşa keçir. Nəticədə, idmançımızın arxası rəqibinə tərəf dönür. Artıq onun rəqabətə dözümü qalmayıb. Və nəticədə, arxaya döndüyü anda rəqibindən aldığı zərbə ilə yarış zonasını tərk edərək yıxılır. Cənubi Koreyanın baş məşqçisi təmsilçimizin yerindən qalxa bilmədiyini görüb öz oturduğu yerdən cəld Qaşım Maqomedovun yanına gəlir. Vəziyyət ciddidir. Onsuz da üstünlüyün özündə olduğunu bilən cənubi koreyalı idmançı arxadan vurduğu zərbənin peşmanlığını baxışları ilə açıq-aydın deyirdi. O da diz çökmüş vəziyyətdə, hakimlər və baş məşqçilərlə birlikdə Qaşımın uzandığı yerdə dayanıb. Artıq Qaşım Maqomedovun yarışa davam edə bilməyəcəyini anlayırlar. Qaşımdan soruşmayaraq üzərindəki qoruyucu jileti soyunduraraq onu kənara çıxarırlar.

Baxmayaraq ki, Qaşım Maqomedov Azərbaycana qızıl medal gətirə bilmədi, lakin ayağındakı zədə ilə sonadək mübarizə apararaq ölkəmizə qızıla bərabər medal qazandırdı.

✍ Rafiq TƏHMƏZ

# Zamanında verilmiş düzgün qərar uğurun açarıdır

Məlumdur ki, müasir dövrdə ölkələrin inkişafını şərtləndirən əsas amil onun təbii sərvətləri yox, bu sərvətlərin yüksək səviyyədə insan kapitalına çevrilməsidir. Bu da bir reallıqdır ki, öz maddi resurslarını insan kapitalına çevirməyə nail olan ölkələr daha çox uğur əldə edir. İnsan kapitalının ön sırada olduğu cəmiyyətlərdə düzgün peşə seçimi əsas amillərdəndir. Bəs düzgün peşə seçimi üçün nə etməliyik? Dəbi, ya tələbatı üstün götürməliyik? Suallarımız haqqında daha ətraflı məlumatı tarix üzrə fəlsəfə doktoru Arzu Abdullayevdən alırıq. Arzu müəllim bildirdi ki, universitetə qəbul olmaq hər bir abituriyentin arzusudur. Ancaq ali təhsil almaq nə qədər vacibdirsə, düzgün ixtisas seçimi də bir o qədər vacibdir. Düzgün ixtisas seçimi abituriyentin həyatında və gələcək karyerasının formalaşmasında ən zəruri amillərdəndir. Çünki sizin bugünkü seçiminiz gələcək həyatınıza təsir edir. Bəzən abituriyentlər bu seçimə səthi yanaşır və topladığı bal hara uyğundursa, heç araşdırma etmədən, o ixtisasa uyğun olub-olmadığını düşünmədən seçim edirlər. Bəzən isə gözləniləni tam əksinə hadisələr baş verir. Mütəxəssislərin fikrinə görə, hər bir abituriyent seçə biləcəyi universitetləri, münasib ixtisasları qabaqcadan dəqiqləşdirməlidir. Bundan başqa, iş dünyasının hansı universitetin məzunlarına daha çox etibar etdiyini də araşdırmaq lazımdır. Çünki bu, gələcəkdə məzun olacaq tələbələrə bilik və təcrübə ilə yanaşı, işəgötürən müəssisə tərəfindən verilən müsbət qiymət kimi də dəyərləndiriləcək. Arzu müəllim qeyd etdi ki, gənclərin əksəriyyəti ixtisas seçərkən onun prestijli olmasını əsas tuturlar. Onlar istəyirlər ki, ixtisasları sosial tələblərə cavab versin. İş yeri seçimində də digər amil olaraq əməkhaqqını əsas götürən gənclər də az deyil. Amma onu unudurlar ki, peşəyə görə əməkhaqqı ödənilmir.

Arzu müəllim bu il qəbul imtahanlarında formalaşacaq keçid balından da danışaraq deyir ki, Dövlət İmtahan Mərkəzi tərəfindən 2022-ci ildə ixtisaslar üzrə keçid ballarının "Abituriyent" jurnalının 2-ci nömrəsində çap olunması şagirdlərdə mövzu ilə bağlı sualların yaranmasına səbəb olub. Ötən illə müqayisədə, bu il ixtisas seçimi edərkən 2023-cü ildə formalaşan balların əhəmiyyətli olub-olmaması qeyri-müəyyən olaraq qalır. Keçid balı müəyyən bir ixtisas üzrə müsabiqədə iştirak edən abituriyentlərin sayı, həmin ixtisas üzrə plan yerləri və abituriyentlərin imtahan nəticələrindən asılı olaraq formalaşır. Abituriyent ixtisas seçimi edərkən öz istəyi ilə yanaşı, mövcud müsabiqə vəziyyətinin reallıqlarını – ixtisaslar üzrə plan yerlərini, müsabiqədə iştirak edən abituriyentlərin imtahan nəticələrinin bal intervalları üzrə paylanmasını, öz imtahan nəticəsinin bu sıralamadakı yerini, həmçinin ötən illər formalaşmış keçid ballarını nəzərə alması onun seçiminin uğurlu olmasına müsbət təsir edə bilər. İxtisas seçimində ən önəmli faktorlardan biri abituriyentin topladığı balın miqdarıdır. Çünki abituriyent ixtisas seçimindəki sıralamanı topladığı bala uyğun olaraq müəyyənləşdirir. Yüksək bal toplayan abituriyentlərin ixtisas seçimi çətinlik yaratmır. Yəni onlar hansı ixtisası öz potensiallarına uyğun hesab edib seçirlərsə, həmin ixtisasa da qəbul olmaq ehtimalları çox olur. 600 və 700 bal toplayan abituriyentlər hansı sahənin mütəxəssisi olmaq istəyirlərsə, buna asanlıqla yiyələnə bilirlər. Ballar aşağı düşdükcə isə, heç şübhəsiz, abituriyentlər ciddi seçim qarşısında qalırlar. Əsasən, 200-350 bal toplayan abituriyentlər böyük risk altında olur və onların əsas məqsədi istədiyi ixtisası seçmək yox, hansı ixtisas olursa-olsun, universitetə qəbul olmaq olur. Abituriyentin balı aşağı düşdükcə seçdiyi ixtisaslarda mütəxəssis olma ehtimalı azalır və bu ixtisas üzrə təhsilini davam etmək istəyinə mənfi təsir göstərir. Bunun üçün ixtisas seçərkən ilk ikisi topladığı baldan bir az yuxarı bal tələb edən ixtisaslar yazılmalıdır. Bundan sonra isə ideal seçim sırası edilməlidir. Burada da əsas olaraq abituriyentin istəyi ön planda olmalıdır. Ümumiyyətlə, abituriyent oxumaq istəmədiyi ixtisasları seçməməlidir. Müsahibimiz vurğuladı ki, abituriyentin ixtisas seçərkən diqqət etməli olduğu əsas məsələlərdən biri də ixtisaslar üzrə plan yerlərini, müsabiqədə iştirak edən abituriyentlərin topladıqları balların paylanması üzrə saylarını, öz fərdi imtahan göstəricilərinin bu sıralanmadakı yerini müəyyən edərək ona əsasən kodlaşdırma aparmasıdır. Yadda saxlamaq lazımdır ki, bütün ixtisaslar lazımlı və faydalıdır. Lakin bu ixtisaslardan biri sizə daha yaxındır. Nəyə qarşı istedadınızın olduğunu aşkara çıxarmaq lazımdır. Yəqin ki, məktəbdə siz də hər hansı bacarıq və qabiliyyətinizə görə digər şagirdlərdən fərqlənməyi bacarırdınız. Belə isə özünüzə bu sualla müraciət edin: "Mənim istedadım nəyə qadirdir?" İnsan peşəsinə qarşı sevgi, həvəslə işləmədikdə çətin ki, işdə böyük uğurlara nail olsun. O, sıradan bir işçi olaraq qalacaq. Lakin insan arzusunda olduğu ixtisası seçdikdə nəinki yüksək nəticələrə nail olacaq, həmçinin işdə də hər zaman sayılan və seçilənlərdən olacaq. Arzulayın və arzunuza doğru gedin.

Əgər məntiqinizin səsi daha çox tələbatın olduğu peşəni seçməyinizi tələb edirsə, 5-10 ildən sonra hansı peşəyə daha çox tələbatın olacağını aydınlaşdırın. Ola bilsin ki, bu seçiminizlə uzun illər boyu özünüzü təmin edə bildiniz. İnsanlar sizinlə eyni addımlaya bilər, lakin sizi ötüb keçə bilməzlər.

***– Bir çoxları məcburiyyət qarşısında qalıb valideynlərinin təklif etdiyi ixtisasları seçirlər. Bəs gələcəkdə bu ixtisasda abituriyentin işləyəcəyini nəzərə alsaq, bu hal nə dərəcədə yol veriləndir?***

– Əksər insanlar uğur qazanmış insanların həyat tarixçələrini oxuyaraq onları özlərinə ideal şəxs olaraq seçir və onların uğurlarını təkrarlamağa çalışırlar. Uğur qazanmış insanların tarixçələrini oxuyun. Ola bilsin, onlar sizə motivasiya qazandıracaq və nə istədiyinizi sizə deyəcək. İxtisas seçərkən onu özünüzə görə seçin. Beləliklə, gələcəyin ən yaxşı mütəxəssislərindən birinə çevrilin.

Təəssüflər olsun ki, insanlar peşə seçərkən onların qərarlarına təsir edəcək bir çox amillərlə qarşılaşırlar. Bu amillər sırasına onun ailəsi, yaşadığı cəmiyyət, fərdi xarakterik xüsusiyyətləri, maraq və meyilləri, qabiliyyətləri də daxildir. Bəzi hallarda insanın peşə seçimi etməsində həyat şərtləri də rol oynayır. Ancaq peşə seçiminə təsir edən əsas faktorlardan biri məhz ailədir. Demək olar ki, bir çox uşaqlı ailələri düşündürən əsas sual da övladlarının "Böyüyəndə kim olacaq?" sualıdır. Alman filosofu Nitşe "İnsan ruhu etdiyi seçimlərlə müəyyənləşir", – demişdi. Zənn edirəm, Nitşenin bu fikrini cəmiyyətdə hər zaman aktuallığını qoruyan "peşə seçimi" mövzusuna da aid edə bilərik. Ümumiyyətlə, peşə seçimi elə bir anlayışdır ki, biz özümüzə hər hansı bir ixtisas seçməklə bir növ gələcək həyatımızı da zəmanət altına almış oluruq. Valideynlər çox vaxt övladlarını özlərinin arzusunda olduğu, ancaq yiyələnə bilmədikləri ixtisaslara yönəldirlər. Belə halda isə övladlarının əvəzinə seçimi valideynlər etmiş olur. Valideynlərin fikirlərinə əsaslanarkən gənclər öz arzu, istək və bacarıqlarını nəzərə almırlar. Doğrudur, hər bir valideyn övladının uğur qazanmasını istər. Əfsuslar olsun ki, bu gün əksər valideynlər öz övladlarını nə vaxtsa reallaşdıra bilmədikləri arzularına və ya prestijli peşəyə sahib olmalarına məcbur edirlər. Valideynlər övladlarına bilərək təsir edir, onların gələcək seçimləri üçün xüsusi addımlar atırlar. Burada sevindirici bir məqam o ola bilər ki, valideyn övladının hər hansı bir sahədə qabiliyyətini görür və onu həmin sahə üzrə istiqamətləndirir. Zamanında verilmiş düzgün qərarlar nəticəsində gəncin peşə seçimi problemi həll olunur. Ancaq reallıq onu göstərir ki, ailələrin övladlara birbaşa təsiri heç də həmişə müsbət nəticələnmir. Gəlin etiraf edək ki, bir çox valideynlər övladlarını elə öz çalışdığı sahələrdə görmək istəyir. Bu zaman isə meydana "Valideynin peşəsinin davamçısı, ailə dəyərlərinin qoruyucusu bir övlad" anlayışı çıxır. Mövzunun daha dərininə getsək, bir çox məqamlarda valideynlərin övladlarına peşə seçimi ilə bağlı psixoloji təsirlərini aydın şəkildə görə bilərik. Nədənsə valideynlər düşünürlər ki, əgər onlar bir sahədə uğur qazanıblarsa, eyni nəticəni övladları da göstərəcək.



***– Bəs genetik faktorları nəzərə alsaq, valideynlərə bu baxımdan haqq qazandırmaq olar, yoxsa yox?***

– Məlum olduğu kimi, əksəriyyət daha yüksək maaşı olan, cəmiyyətdə yaxşı statusa malik peşələrə sahib olmaq istəyir. Yuxarıda qeyd etdiyimiz peşənin – "gələcək həyata zəmanəti" olması anlayışı burada öz təsdiqini tapır. Çünki normal şəkildə yaşamaq, öz istək və tələbatlarını ödəmək üçün maddi vəziyyətin yaxşılaşdırılması insanların həyatını da asanlaşdıracaq. Bu baxımdan da gənclər məhz yüksəkmaaşlı ixtisasları seçməyə meyilli olurlar. Valideynin peşəsi kifayət qədər yaxşı qazanc bəxş edirsə, gəncin də həmin sahəni seçmə ehtimalı yüksək olacaqdır. Hər bir halda ailələrin həm birbaşa, həm də dolayı təsiri gənclərin bu mövzudakı qərarlarında rol oynayacaqdır. Burada isə diqqət yetirilməli olan əsas məsələ ailələrin zamanında övladlarının qabiliyyətinin fərqində olmaq, onları düzgün istiqamətləndirməkdir. Əlbəttə, valideynlər öz uşaqlarını daha yaxşı yerdə görmək, uğurlu mütəxəssis olmağını istəyir. Ancaq bu o demək deyil ki, gənclər mütləq şəkildə valideynin peşəsini davam etdirməlidir. "Mən bu sahədə uğur qazanmışamsa, övladım da eyni nəticəni göstərəcəkdir" fikrini özünüzdən uzaqlaşdıraraq ona daha yaxşı seçimlər təklif edə bilərsiniz. İxtisası prestijə yox, əmək bazarına görə seçmək lazımdır. Həm valideynlər, müəllimlər, həm də abituriyentlər ixtisas seçimində əmək bazarını nəzərə almalıdırlar. Bunu bilmək isə o qədər də çətin deyil.

Naxçıvan Dövlət Universitetində müəyyən ixtisaslarda plan yerləri haqqında danışan müsahibimiz deyir ki, ixtisas seçimində 3 əsas amilə – abituriyentlərin sayına, imtahan nəticəsinə və plan yerlərinə ciddi şəkildə diqqət edilməlidir. İlkin olaraq ötən ilin tələbə qəbulu müsabiqəsində formalaşmış keçid balları ilə tanış olmaq lazımdır. Amma onunla tam şəkildə yola çıxmaq da uğurlu ola bilməz. Abituriyentlər mütləq şəkildə 2023-cü ildə ixtisas qrupu üzrə eyni və daha çox bal toplayanların sayına və həmin ildəki plan yerlərinə, yeni ixtisaslara və həm də bağlanmış ixtisaslara diqqət etməlidir. 2023-cü ildə bəzi aşağı və ya yuxarı balla formalaşmış ixtisasların plan yerləri ilə 2024-cü ilin plan yerləri müqayisə edilməlidir. Çünki onların bəzisində azalma, bəzisində isə artma var ki, bu da ixtisas seçimi zamanı sizi yanılda bilər. Misal olaraq, Naxçıvan Dövlət Universitetinə qəbul aparılacaq ixtisaslardan III ixtisas qrupunda Fəlsəfə, Tərcümə (ərəb-fars dilləri), V ixtisas qrupunda Bəstəkarlıq ixtisaslarına plan yeri nəzərdə tutulmayıb. Digər tərəfdən isə I ixtisas qrupunda İnformasiya təhlükəsizliyi (tədrisi ingilis dilində), IV ixtisas qrupunda Tibb bacısı işi ixtisaslarına ilk dəfə olaraq qəbul nəzərdə tutulub. Digər tərəfdən, plan yerlərinə də diqqət edilməsi vacib şərtlərdəndir. Arzu müəllim qeyd etdi ki, 2023-cü ildə Naxçıvan Dövlət Universitetinin İnformasiya texnologiyaları ixtisasında 30 plan yeri var idi, bu il isə o ixtisas üzrə plan yeri 10 yer artaraq 40 plan yeri olub. Başqa bir misal, 2023-cü ildə Naxçıvan Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisasında 30 plan yeri var idi, bu il isə o ixtisas üzrə plan yeri 10 yer artaraq 40 plan yeri olub. Deməli, bu ixtisası seçən abituriyentlər üçün də fürsət yaranmış olur.

Bir sözlə, ixtisas seçimi edən hər kəs Dövlət İmtahan Mərkəzi tərəfindən nəşr olunan və yayımlanan jurnallara, statistik məlumatlara, xüsusi buraxılışlara, ixtisas qrupları üzrə rəsmi məlumatlara diqqət etməli və bu sahənin mütəxəssisləri ilə məsləhətləşməlidir. Bir sözlə, "Yüz ölçüb bir seçməliyik".

*Biz də, öz növbəmizdə, tələbə adını qazanmaq yolunda başlanan bu marafonda hər bir abituriyentə uğurlar arzu edirik.*

**Bülbül QULİYEVA**

# Muxtar respublika üzrə qəbul imtahanlarında yüksək nəticə göstərən Əfsanə və Aytac Naxçıvan Dövlət Universitetini seçməkdə qərarlıdır

Bu gün dövlətimizin təhsilin inkişafına göstərdiyi böyük diqqət və qayğı öz bəhrəsini verməkdədir. Yəni təhsilimiz keyfiyyətcə yeni, daha yüksək səviyyəyə çatdıqca xalqımızın tərəqqisi daha da sürətlənir. Unutmaq olmaz ki, təhsilin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Azərbaycan dövləti bu sahədə üzərinə düşən vəzifələri uğurla yerinə yetirir.

Doğulub, boya-başa çatdığımız dövlət kimliyindən asılı olmayaraq, hər bir vətəndaşının oxumasına, inkişafına, sevdiyi, seçdiyi peşəyə, ixtisasa yiyələnməsinə önəm verir, dəstək olur. Elə bunun göstəricisidir ki, bu gün ölkəmizdə genişmiqyaslı imkanları olan onlarla ali təhsil ocağı var. Belə təhsil ocaqlarından biri də Naxçıvan Dövlət Universitetidir. Hazırda bu universitetin təhsil sistemi dünyanın ən qabaqcıl ölkələrinin təhsil sistemi, təlim metodları ilə təkmilləşdirilir. Buna görə də bu il ölkəmizdə Dövlət İmtahan Mərkəzinin iyul ayının 7-si və 14-ü keçirdiyi qəbul imtahanında Naxçıvan Muxtar Respublikası üzrə yüksək balla tələbə adını qazanmış 2 abituriyent də məhz bu ali təhsil ocağını seçib.



Bizi sevindirən digər məqamlardan biri də budur ki, muxtar respublikada 500-700 intervalında bal toplayan abituriyentlərin sayı ildən-ilə artır. Qəbul imtahanında müvəffəqiyyət əldə edərək Naxçıvan Dövlət Universitetini seçən abituriyentlərlə həmsöhbət olduq. Onlardan biri Əfsanə Məmmədzadədir. O, Babək rayonunun Yarımca kənd tam orta məktəbinin məzunudur. III ixtisas qrupu üzrə 672 bal toplayan Əfsanənin bu ali məktəbi seçməsinin səbəbi adıçəkilən universitetin digər ölkələrin universitetləri ilə əməkdaşlıq proqramlarını gücləndirməsi, birgə layihələrin həyata keçirilməsidir. Həmsöhbətim abituriyentlərə ixtisas seçərkən məntiqlə düşünmələrini məsləhət görür. Deyir ki, o, çəkdiyi əziyyətin qürurunu yaşayır. Ən böyük arzusu budur ki, nailiyyətlərini gələcək ali təhsil həyatında da davam etdirsin. Əfsanə "Şərq qapısı" qəzetinə də minnətdarlığını bildirdi: "İlk dəfədir ki, müsahibə verirəm və bu səbəbdən çox həyəcanlıyam. Tələbə adını qazanmaq üçün bir neçə il səylə çalışdım, gecəmi gündüzümə qatdım. Sonda arzuma çatdım. Bu yolda mənə dəstək olan valideynlərimə, müəllimlərimə minnətdarlığımı bildirirəm".

Naxçıvan şəhər Əliabad qəsəbəsindəki 16 nömrəli tam orta məktəbi bitirən Aytac Alışarlı da II ixtisas qrupu üzrə 662 bal toplayaraq Naxçıvan Dövlət Universitetini seçib. Tələbə adını qazanmağın bir addımlığında olan Aytac sevinc hisslərini bizimlə bölüşür: "Əvvəla, mən və digər yüksək bal toplayan abituriyentləri diqqətdə saxladığınız üçün "Şərq qapısı" qəzetinə minnətdarlığımı bildirirəm. Orta məktəbdə dərslərə hər zaman hazırlıqlı olmuşam. Çünki məqsədim bu idi ki, maksimum bal toplayım. Bu gün illərlə çalışmağımın bəhrəsini görür, sevincini yaşayıram. Abituriyentlərə məsləhətim odur ki, məqsədlərinə nail olmaq üçün oxumaqdan, öyrənməkdən bir an belə yorulmasınlar. Düşünsünlər ki, bu əziyyətli günlərin ömrü qısadır, bəhrəsini isə bütün ömrümüz boyu görəcəyik".

Bizimsə onlara sözümüz budur ki, hər zaman üzünüzdən qalibiyyət təbəssümü əskik olmasın, əziz tələbələr! Tək amalınız Vətənə, dövlətə layiqli, ziyalı vətəndaş kimi yetişmək olsun.

**Aygün RÜSTƏMOVA**

1 sentyabr 2024-cü il Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər günüdür

# Seçki marafonu – 2024

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər 45 seçki dairəsi üzrə keçiriləcəkdir.***

**Müşahidə aparılmasının prinsipləri**

*Müşahidənin aparılması aşağıdakı prinsiplərə əsaslanmalıdır:*

– seçki prosesinə namizədin və ya siyasi partiyanın mənafeləri naminə təsir göstərilməməlidir;

– müşahidə edilən hərəkətlərə aid olan bütün hallar və faktlar nəzərə alınmalıdır;

– müşahidə açıq aparılmalıdır;

– Müşahidənin yekunları faktlara əsaslanmalıdır. Sadalanan prinsiplər müşahidəçinin lövhəciyinin arxasında göstərilməlidir.

***Müşahidə seçkilər elan olunduğu gündən başlana bilər və müvafiq məhkəmələrdə seçkilərlə əlaqədar bütün mübahisələr baxıldıqdan sonra seçkilərin yekunlarının (ümumi yekunlarının) rəsmi dərc edildiyi gün bitir.***

**Müşahidəçilərin hüquq və vəzifələri**

– Yerli və beynəlxalq müşahidəçilər eyni hüquqlara malikdirlər və eyni vəzifələr daşıyırlar.

*Müşahidəçinin, o cümlədən beynəlxalq müşahidəçinin "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 37.12 və 37.13-cü maddələrində göstərilən hüquqlarla yanaşı, aşağıdakı hüquqları vardır:*

– seçici siyahıları ilə tanış olmaq;

– səsvermə günü istədiyi vaxt müvafiq seçki məntəqəsinin səsvermə otağında olmaq;

– seçicilərə seçki bülletenlərinin verilməsini müşahidə etmək;

– səsvermə yerindən kənarda seçicilərin səsverməsini müşahidə etmək;

– seçicilərin sayını hesablamaq, seçki bülletenlərinin, ləğv edilmiş seçki bülletenlərinin sayılmasını müşahidə etmək;

– müşahidənin nəticələrinin seçki komissiyasının protokoluna əlavə olunmasını tələb etmək;

– müşahidə aparmağı təmin edən şəraitdə və müəyyən məsafədən seçicilərin səslərinin hesablanmasına, seçicilərin səsləri hesablanarkən doldurulmamış hər bir seçki bülleteninə səsin etibarlılığını yoxlamaq məqsədilə baxmaq, səsvermənin nəticələri və seçkilərin yekunları (ümumi yekunları) haqqında seçki komissiyasının protokolu və digər sənədlərlə tanış olmaq;

– səsvermənin təşkili ilə əlaqədar təklif və iradlarla məntəqə seçki komissiyasının sədrinə, o olmadıqda isə onu əvəz edən şəxsə müraciət etmək;

– seçki komissiyalarının sənədlərinin, o cümlədən səsvermənin nəticələri və seçkilərin yekunları haqqında protokolların, səsvermə günü seçki komissiyasının işə başladığı və seçki qutularının kilidləndiyi andan seçki komissiyaları tərəfindən səsvermənin nəticələri haqqında protokolların qəbul edilməsinədək seçki komissiyaları tərəfindən tərtib edilmiş və ya onlara daxil olmuş qoşma sənədlərin təsdiqlənmiş surətlərinin bir nüsxəsini haqq ödənilmədən çıxarmaq və ya almaq, əlavə nüsxələri Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilən haqq ödənilməklə çıxarmaq və ya almaq (müşahidəçinin tələbi ilə seçki komissiyası adıçəkilən sənədlərin surətlərini təsdiq etməlidir), səsvermədə iştirak edən şəxslərin siyahısı ilə tanış olmaq;

– müvafiq seçki komissiyalarında seçicilərin səslərinin təkrar hesablanmasını müşahidə etmək;

– seçki sənədlərinin dairə seçki komissiyasına və Mərkəzi Seçki Komissiyasına göndərilməsini müşahidə etmək.

*Müşahidəçiyə aşağıdakı hərəkətlər qadağan edilir:*

– seçicilərə seçki bülletenləri vermək;

– seçiciyə necə səs verəcəyi və ya necə səs verdiyi haqqında sual vermək;

– seçicinin xahişi ilə onun əvəzinə seçki bülleteni alınması haqqında imza etmək;

– seçicinin xahişi ilə seçki bülletenini doldurmaq;

– seçki komissiyalarının üzvləri ilə birlikdə seçki bülletenlərinin hesablanmasında birbaşa iştirak etmək;

– seçki komissiyalarının işinə maneə törədən hərəkətlər etmək;

– seçicilər arasında təşviqat aparmaq;

– bu və ya digər namizədin, siyasi partiyanın dəstəklənməsinə yönəldilən və ya dəstəklənməsi kimi qiymətləndirilə bilən hərəkətlər və ya çağırışlar etmək;

– müvafiq seçki komissiyasının qərarlarının qəbul olunmasına müdaxilə etmək;

– seçicilərin suallarına cavab vermək (öz statusu ilə bağlı suallar istisna olmaqla).

– "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 39.3-cü maddəsində göstərilən tələblərə riayət etməyən müşahidəçinin qeydiyyatı onu qeydə almış seçki komissiyasının müraciəti əsasında müvafiq məhkəmə tərəfindən ləğv edilə bilər.

***Müşahidəçilər müşahidənin yekunlarına dair rəylərini Mərkəzi Seçki Komissiyasının sədrinə, dairə və ya məntəqə seçki komissiyalarının sədrinə təqdim etdikdə həmin rəy səsvermənin nəticələri və ya seçkilərin yekunları haqqında protokola əlavə edilməlidir.***

**Media subyektlərinin nümayəndələri**

– Media subyektlərinin nümayəndələri bütün seçki komissiyalarının iclaslarını işıqlandıra, səsvermənin nəticələri və seçkilərin yekunları haqqında protokollar və qərarlarla tanış ola bilər, habelə müvafiq seçki komissiyasının qərarının, protokolunun və onlara qoşulan digər sənədlərin surətlərinin bir nüsxəsini haqqı ödənilmədən çıxara və ya ala bilər, əlavə nüsxələri isə Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilən haqq ödənilməklə ala bilərlər.

– Media subyektləri nümayəndələrinin tələbi ilə seçki komissiyası qərarlarının, səsvermənin nəticələri və seçkilərin yekunları haqqında protokollarının surətləri seçki komissiyası tərəfindən təsdiq olunmalıdır.

**Beynəlxalq (xarici) müşahidəçilər**

– Beynəlxalq (xarici) müşahidəçilər qanunla müəyyənləşdirilmiş qaydada və müvafiq dəvət əsasında Naxçıvan Muxtar Respublikasına gələrkən Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçirlər.

– Dəvətlər seçkilərin təyin edilməsi barədə qərar rəsmi dərc edildikdən sonra Ali Məclis, müvafiq icra hakimiyyəti orqanları və Mərkəzi Seçki Komissiyası tərəfindən göndərilə bilər.

– İnsan və vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində nüfuzu olan qeyri-hökumət təşkilatları da beynəlxalq müşahidəçilərin dəvət olunması haqqında öz təkliflərini Ali Məclisin deputatlarına, Mərkəzi Seçki Komissiyasına və ya müvafiq icra hakimiyyəti orqanına verə bilərlər.

– Beynəlxalq müşahidəçi qeydə alınmaq üçün "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 37.7-ci maddəsində göstərilən sənədləri təqdim edir. Mərkəzi Seçki Komissiyası beynəlxalq müşahidəçiyə dövlət dilində və xarici dillərin birində onun təqdim etdiyi sənədlərə uyğun tərtib edilmiş vəsiqə – lövhəcik verir. Yalnız belə lövhəciyin olması beynəlxalq müşahidəçiyə seçkilərin hazırlanması və keçirilməsi dövründə seçki qanunvericiliyinin maddələrinə uyğun olaraq fəaliyyət göstərmək imkanı verir.

– Beynəlxalq müşahidəçinin səlahiyyət müddəti Mərkəzi Seçki Komissiyasında qeydə alındığı gündən başlayır və seçkilərin yekunlarının (ümumi yekunlarının) rəsmi dərc edildiyi gün tamam olur.

– Beynəlxalq müşahidəçi öz fəaliyyətini müstəqil və sərbəst həyata keçirir, onun fəaliyyəti müşahidəçini göndərən tərəfin hesabına və ya onun öz şəxsi vəsaiti hesabına maliyyələşdirilir.

– Beynəlxalq müşahidəçi Naxçıvan Muxtar Respublikasının ərazisində olduğu müddətdə dövlətin mühafizəsi altına alınır. Seçki komissiyaları, dövlət hakimiyyəti orqanları və bələdiyyə qurumları ona zəruri yardım göstərməyə borcludurlar.

– Beynəlxalq müşahidəçilər səsvermə günündən sonra seçki qanunvericiliyi, seçkilərin hazırlanması və keçirilməsi ilə əlaqədar mətbuat konfransı keçirə və media subyektlərinə müraciət edə bilərlər.

– Beynəlxalq müşahidəçilərin seçicilərlə, namizədlərlə, qeydə alınmış namizədlərlə, seçki komissiyalarının üzvləri ilə, siyasi partiyaların səlahiyyətli nümayəndələri ilə, qeydə alınmış namizədlərin, siyasi partiyaların vəkil edilmiş şəxsləri ilə görüşmək hüququ vardır.

– Beynəlxalq müşahidəçilər seçki kampaniyasının gedişi, seçkilərin hazırlanması və keçirilməsi ilə əlaqədar olmayan fəaliyyətlə məşğul olmaq üçün öz statusundan istifadə edə bilməzlər.

– Beynəlxalq müşahidəçi qanunları, beynəlxalq hüquq normalarını pozduğu hallarda Mərkəzi Seçki Komissiyası onun qeydiyyatını ləğv edə bilər.

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti***

# Milli hərb tariximizdə Cəmşid xan Naxçıvanski izi…

Milli hərb tariximizə adını qızıl hərflərlə yazdıran görkəmli hərbçi, peşəkar zabit, keçmiş sovet məkanında xalqımızın qəhrəmanlığını, mübarizliyini təmsil edən Cəmşid Naxçıvanski yaşadığı dövr qədər çox çətin, bir o qədər də təlatümlü yol keçmişdir. 1895-ci ildə Naxçıvanskilər ailəsində dünyaya gələn Cəmşid xan yaxşı təhsil almış, ingilis, fransız dillərini dərindən öyrənmiş, hələ gənclik illərindən başlayaraq gələcəkdə ömür yolunu müəyyən edəcək hərb peşəsinin sirlərinə yiyələnmişdir. Kiçik yaşlarından hərb sənətini sevməsi, bu sənətə böyük maraq göstərməsi onu Tiflisə – hərbi yunkerlər hazırlayan Kadet məktəbinə gətirib. O, 1907-1914-cü illərdə bu məktəbdə təhsil alıb. 1914-cü ilin avqustunda isə Qərbi Ukraynanın Yelizavetqrad şəhərində Qvardiya məktəbinə daxil olub. Birinci Dünya müharibəsinin başlanması ilə əlaqədar bu məktəbdə 4 aylıq kurs keçib. Az müddət ərzində yaxşı işi, nümunəvi davranışı və qətiyyətliliyi ilə kollektivin hörmətini qazanıb. Cəmşid xan Naxçıvanski 3 aydan sonra – 8 noyabr 1914-cü ildə yunker-unter rütbəsi alıb. 4 aylıq kursu bitirdikdən sonra isə ona 1 dekabr 1914-cü ildə o dövr üçün ilk zabit rütbəsi sayılan praporşik rütbəsi verilib.

Birinci Dünya müharibəsinin başlanması ilə keçmiş rus ordusu sırasında xidmət edən azərbaycanlı zabitlər də qanlı döyüşlərə atılıb. Cəmşid xan I Dünya müharibəsinin ən ağır döyüş bölgələrindən biri olan Cənub-Qərb cəbhəsində döyüşərək babalarının şanına və şərəfinə layiq olan cəsarət və igidlik göstərib. Gənc zabit bu qanlı müharibədə üç dəfə ağır yaralanıb, müalicə olunaraq təkrar döyüşlərə qatılıb. Cəmşid xanın göstərdiyi şəxsi döyüş nümunəsi və şücaəti ordu rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib, sərkərdə ən ali mükafatlarla təltif olunub.

Müharibənin başa çatması ilə o, Vətənə qayıdıb. Və bu hadisədən sonra Cəmşid xan Naxçıvanskinin həyatında böyük hadisələr baş verib. Məsələn, görkəmli hərbçimiz 1918-ci il sentyabrın 15-də Bakının erməni daşnaklarından və "Sentrokaspi diktaturası" qüvvələrindən təmizlənməsində fəallıq göstərib. Bu xidmətlərinə görə ona podpolkovnik rütbəsi verilib, ardınca Azərbaycan milli hökuməti 1920-ci il 24 mart tarixli əmrlə Cəmşid Naxçıvanskini II Qarabağ süvari alayına komandir təyin edib. O, Qarabağda erməni daşnaklarına qarşı ağır döyüşlərdə iştirak edərək Əskəran qalasının, Ağdam, Xankəndi və Şuşanın azad olunmasında əsl igidlik göstərib. 1921-ci ildə Cəmşid Naxçıvanskiyə daha çətin və məsuliyyətli bir vəzifə – Azərbaycanın ilk Milli Atıcı Diviziyasını yaratmaq tapşırılır. O, hərbçi peşəkarlığı ilə bütün bacarığını və gücünü diviziyanın yaradılması işinə sərf edir. Diviziyaya komandirliyi dövründə bir neçə dəfə ali akademiya kurslarında iştirak edir. Bütün qoşun növlərinin strategiyasını mükəmməl öyrənir və hərbi işi dərindən bilən bir komandir kimi Bakıya qayıdır. Onun ömür yolunda bunun kimi hadisələr çoxdur və əsası da odur ki, Cəmşid xan Azərbaycan tarixinə adını qızıl hərflərlə yazdıran peşəkar hərbçi kimi xalqımızın yaddaşında qalıb…













Ötən əsrin 30-cu illərində başlayan amansız Stalin repressiyaları Cəmşid xanın da həyatından yan keçməyib. O, 1938-ci ilin mayında həbs olunub, iki aydan bir az artıq həbs həyatı yaşayıb və avqustun iyirmi altısında güllələnməyə məhkum edilib. Bu hadisənin üzərindən illər keçdikdən sonra, daha dəqiq desək, 1956-cı ildə SSRİ Ali Məhkəməsi tərəfindən bəraət verilib.

Görkəmli hərbiçinin ev-muzeyi rəsmi olaraq Naxçıvanda 1987-ci ilin noyabrında açıldı və həmin muzey bu gün də milli hərb tariximizdə dərin iz qoymuş Cəmşid xan Naxçıvanskinin adını, onun fəaliyyətini keçmişdən günümüzə şərəflə, tarixi həqiqətlərin fonunda düzgün və real şəkildə yansıda bilir…

✍ Məcid RƏŞADƏTOĞLU

# Bura Naxçıvandır





Sahilsiz, hüdudsuz bir ümman tək uzanan geniş göyün altında, didilmiş yuntək çəngə-çəngə olmuş buludların himayəsində, dörd bir tərəfdən qayalarla, vüqarlı dağlarla əhatə olunmuş Vətənin qismən uzaq bir guşəsində yerləşir bu məmləkət. Adında bir doğmalıq, havasında, suyunda məhrəmlik hiss edilir, hər daşı-qayası min illərin belini bükən tarixindən soraq verir, sükut edib onun söz-söhbətini dinləsək, eşidərik ki, dan yeri ağaranda Günəşin zərrin şəfəqlərini qarşılayan xan Arazı, qanla qarışıb Vətən yaratmış, sənə, mənə, bizə isti qucaq, doğma ocaq olmuş torpağı böyük mətləblər açır insanlara. Hər addımında böyük tarix yatan yurdumuzun şirin söhbətini dinlədikcə sanki Nuhun gəmisinə əyləşib bu diyarın seyrinə çıxırıq. Qarış-qarış gəzirik bu məmləkəti, addım-addım adı dastanlara düşmüş, şeirlərə, poemalara mövzu olmuş, şairlərə ilham vermiş Naxçıvanı – Nəqşicahanı misra-misra, sətir-sətir dolaşırıq. Sirli-sehrli naxışlar diyarı, zəhmətsevər insanlar səltənəti, Uca Yaradanın qüdrətli fırçası ilə ərsəyə gətirdiyi müqəddəs torpağın nur parçası, sən necə də doğmasan, əzizsən bizə…

Yaşı qədimdən də qədim, görkəmi müasirdən də müasir, hər qarışı tarix olan, hər kəndi, qəsəbəsi, şəhəri qonaqpərvər insanlarla dolu, tariximizə, ədəbiyyatımıza, incəsənətimizə iz salmış görkəmli şəxsiyyətlərlə məşhur Naxçıvanın qiymətini bilmək, onun hüsnünə söz çələngi toxumaq hər bir jurnalistimiz üçün peşə amalı, qələmin müqəddəs vəzifəsi və hər birimizin vətəndaşlıq borcu deyilmi? İnsan yaşadığı yerlə bütünləşir deyirlər; bu diyarın aydın səmasına gözlərini açmış, havasını ciyərlərinə çəkmiş, suyunu içmiş, "ana Vətən" sözünü bu torpaqda dilə gətirmiş hər bir insan üçün doğma yurdu – Naxçıvanı qorumaq, hər şeydən əvvəl, Ulu Tanrıya şükranlıq borcu, bizdən əvvəlki nəsillərdən bizə miras qalmışları qorumaq, yaşatmaq məramı deyilmi? Ata-babaların xeyir-duasını duymuş, ana-nənələrin şirin laylasında mürgüləmiş bir nəslin öz əcdadının ayaq izinə sadiq qalması, tarixinə, mədəniyyətinə qırılmaz tellərlə bağlı olması, onları yenidən həyata qaytarması, yaratması, yaşatmaşı qədər gözəl, qəlbində "vətən daşı" olan bir insan üçün bundan daha müqəddəs nə ola bilər ki həyatda?

*(ardı var)*

✍ **Məcid RƏŞADƏTOĞLU**









## Naxçıvanın peşə adamlarından: dərzi Bəxtiyar





Geyimimiz bizim gündəlik yaşam tərzimizi və özümüzü ifadə etməyin gözəl vasitələrindən biridir. Necə görünməyimiz bizim düşüncələrimiz barədə fikir yürütməyə kifayət edir. Ona görə də daha gözəl və səliqəli geyimlər tikdirmək üçün tez-tez dərziyə müraciət edirik. Bu peşə ilə məşğul olan insanlar çoxdur, lakin peşəkar ustalıq qazanmış dərzilər tapmaq çətindir. Ona görə də "Şərq qapısı" qəzeti olaraq budəfəki yazımızda dərzilik peşəsinin incəliklərindən və dərzilərdən söz açmaq qərarına gəldik.

Naxçıvan şəhərinin İstiqlal 105 ünvanında yerləşən dərzi köşkündə çalışan Bəxtiyar Hüseynov illərini bu peşəyə həsr edib. 51 yaşlı usta deyir: "8-ci sinifdə oxuduğum illərdən dərzilik sənətinin sirlərini öyrənməyə başlamışam. Bu gün artıq peşəkar dərzi kimi fəaliyyət göstərirəm. Hər iş kimi dərziliyin də müəyyən çətinlikləri var. Lakin buna baxmayaraq, peşəmə olan sevgim bu çətinlikləri üstələyib. Bu sənəti o qədər sevirəm ki, gün ərzində əlimdən iynə, qayçı əskik ola bilməz".

Dərziliyin sirlərindən danışan Bəxtiyar Hüseynov bildirdi ki, hər bir sənətdə peşəkar olmaq üçün öncə bu sənəti sevməlisən. İşini sevərək ona yanaşmasan, gördüyün iş yaxşı alınmayacaq. Dərzilik peşəsi gəlirli sahə olmasa da məsuliyyət və diqqət tələb edir. Müştərilərlə xoşrəftar olmaq, səmimi ünsiyyət qurmaq və müştəri məmnuniyyətini ən yüksək səviyyədə saxlamaq bizim işimizin əsasını təşkil edir. Onların zövq və tələblərinə uyğun geyimi hazırlayıb təhvil vermək üçün bəzən gecəyə qədər çalışıram. Bəzi hallarda müştərilər paltarı mağazadan əldə etsələr belə, dərziyə üz tutmaq məcburiyyətində qalırlar. Çünki mağazadan əldə etdikləri geyim standart formada olur. Bəzən ölçüləri müxtəlif olur, bəzən də bədən formaları üst-üstə düşmür.

Bəxtiyar usta bildirdi ki, bu peşə mənim üçün təkcə qazanc mənbəyi deyil, eyni zamanda həyatımın ayrılmaz bir hissəsidir. Demək olar ki, günümün bir çox hissəsini bu köşkdə keçirirəm. Köşkdə Bəxtiyar usta ilə yanaşı, iki xanım dərzi də nəzərimizdən yayınmır. Həmsöhbət olan zaman öyrənirik ki, bu xanımlar da Bəxtiyar usta ilə bərabər illərdir, burada işləyirlər. Onlar bu işin sirlərini Bəxtiyar ustadan öyrəndiklərini bildirirlər. Rəsmiyyə Məmmədovanın dediklərindən: "Gün ərzində iynə-sapla işləmək, tikişləri düzgün vurmaq çox çətin və diqqət tələb edən işdir. Müştərinin sənə əmanət etdiyi paltarı onun öz zövqünə uyğunlaşdırmağı bacarmalısan".

Bizi mehribanlıqla qarşılayıb, eləcə də yola salan bu zəhmətkeş peşə sahiblərinə bol qazanc və müştəri razılığı arzu edirik.

✍ **Bülbül QULİYEVA**

## *"Payızın zəfər rəngi"* adlı kitabın təqdimatı keçirilib




M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında Naxçıvan ədəbi mühitinin tanınmış nümayəndələrindən, yazıçı, şairə və jurnalist Təranə Arifqızının "Payızın zəfər rəngi" adlı kitabının təqdimatı keçirilib.

Təqdimatı giriş sözü ilə M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru Tamella Əsgərova açaraq qeyd edib ki, Təranə Arifqızı şair kimi tanınsa da, onun müxtəlif səpkilərdə hekayələri, esseləri, publisistik, ədəbi-bədii məqalələri də var. Təranə Arifqızı Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. O həm də Heyran xanım adına Zərif Qadınlar Ədəbi Məclisinin təsisçisi və sədridir.

Azərbaycan Yazıçılar Birliyinin üzvü, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, şair, ədəbiyyatşünas, filologiya üzrə fəlsəfə doktoru Xanəli Kərimli, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, filologiya üzrə elmlər doktoru, professor Sədaqət Həsənova, AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Orucova, Heyran xanım adına Zərif Qadınlar Ədəbi Məclisinin üzvü, şairə Sevinc Azadlı müxtəlif mövzularda çıxış ediblər.

Qeyd edək ki, təqdimatı keçirilən "Payızın zəfər rəngi" müəllifin 7-ci kitabıdır. Kitabda müəllifin müxtəlif səpkilərdə yazdığı təbiətə, vətənə, məhəbbətə aid şeirləri toplansa da, vətənpərvərlik ruhunda yazılmış şeirləri üstünlük təşkil edir.

Sonda müəllifin qələm yoldaşları kitab haqqında öz fikirlərini paylaşıb.

### *İtmişdir*

Rəsulova Qonça Fətəli qızının adına olan 9 fevral 2015-ci il tarixli A-009833 qeydiyyat nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Tumaslı kənd sakini Səfərova Mehriban Hüseyn qızının adına verilmiş, Şərur rayonu, Vayxır kəndində yerləşən JN-81^A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" və JN-96 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu Gülşənabad kənd sakini Zeynalov Məhərrəm Abbasəli oğlunun adına olan A-008265 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Nəbiyeva Püstə Rəcəb qızının adına olan əmək kitabçası itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Dırnıs kənd sakini İbrahimov İbrahim Məhərrəm oğlunun adına olan 13 avqust 2010-cu il tarixli A-004990 inventar nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Fərzəlizadə Əvəz Yalçın oğlunun adına olan Naxçıvan Dövlət Universiteti tərəfindən 2020-ci ildə verilmiş diplomdakı qiymət cədvəli itdiyindən etibarsız sayılır.

***

Niftəliyev Elşən Nurəddin oğlunun adına olan SQ-0028718 nömrəli gizirin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Əliyev Zülfüqar Sadıx oğlunun adına olan JN-2055^A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çomaxtur kəndində yaşamış Məmmədova Səkinə Heydər qızının adına olan 102013007889 reyestr nömrəli plan-ölçü və çıxarış itdiyindən etibarsız sayılır.

### *Bildiriş*

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təsisçisi olduğu "Texniki Servis Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətini dayandırdığından ləğv olunur.

ŞƏRQ qapısı
Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 020065441

Çapa imzalanmışdır 00:00

Nömrəyə məsul: Nail Əsgərov
Rafiq Təhməzov
Dizayner: Lətif Zeynalov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 500. Sifariş № 223